28 iyun 2024 №47-48 (2113) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Konstitusiya Məhkəməsi qərarını verdi – Milli Məclis buraxıla bilər



İyunun 27-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxılıb.

səh. 2

## Azərbaycan Bəstəkarlar İttifaqının 90 yaşı tamam olur

Musiqi sahəsində təşkilatlanmanın başlanğıcı kimi 1919-cu ildə Bakıda Orkestr Musiqiçiləri İttifaqının yaradılmasını qeyd etmək olar. 1920-ci ildə musiqiçilərin daha bir ictimai təşkilatı "Simfonik musiqi cəmiyyəti" mədəni həyata qoşulur...

1933-cü ilin iyun ayında Bəstəkarlar İttifaqının Təşkilat bürosu yaradılır. 1934-cü il iyunun 17-də Bəstəkarlar İttifaqının təsis yığıncağının çağırılmasına qərar verilir...

səh. 6

## Məmməd Arif Dadaşzadənin 120 illiyi ilə bağlı elmi sessiya

İyunun 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, tərcüməçi, pedaqoq, nasir, akademik Məmməd Arif Dadaşzadənin 120 illiyinə həsr olunmuş elmi sessiya keçirilib.

İnstitutun foyesində Məmməd Arif Dadaşzadənin həyat və fəaliyyətini əks etdirən sərgi açılıb.

səh. 3

## Səhnəmizin ağ çiçəyi

### Filarmoniyada Xalq artisti Roza Cəlilovanın 95 illik yubiley gecəsi



İyunun 27-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında milli rəqslərimizin mahir ifaçısı, Xalq artisti Roza Cəlilovanın 95 illiyinə həsr olunmuş "Səhnəmizin ağ çiçəyi" adlı yubiley konserti keçirildi.

Tədbirdə əvvəlcə rəqqasənin həyat və sənət yolundan söz açıldı, ifa etdiyi milli və dünya ölkələri rəqslərinə qatdığı gözəlliklərdən bəhs olundu. Roza Cəlilovanın milli rəqs sənətimizin inkişafına verdiyi töhfələrdən danışıldı.

Sonra F.Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Dövlət Rəqs Ansamblı və Bakı Xoreoqrafiya Akademiyası tələbələrinin ifalarında bir-birindən incə rəqs nömrələri nümayiş olundu. Vaxtilə bu rəqslərlə müxtəlif səhnələrə çıxan Roza Cəlilova və indi həyatda olmayan bir çox sənət həmkarları alqış selinə bürünmüşdü. Bu dəfə də səslənən alqışlar, ilk növbədə, ona – zalda tamaşaçılarla birgə əyləşən 95 yaşlı sənətkara ünvanlanmışdı...

davamı səh. 2-də

# Qardaş eldə muğamın məqamı:

## ölkəmiz Özbəkistanda beynəlxalq forumda təmsil olunur

27-30 iyun tarixlərində Özbəkistanın Cizzax vilayətinin Zamin rayonunda UNESCO və ICESCO-nun himayəsi ilə II Beynəlxalq Maqom (Muğam) Sənəti Forumu keçirilir.

80-ə yaxın ölkədən 400-dən çox qonağın iştirak etdiyi forumun məqsədi özbək milli maqom sənətinin nadir nümunələrini qoruyub saxlamaq, inkişaf etdirmək və beynəlxalq səviyyədə təbliğ etmək, eləcə də xalqlar arasında dostluğu və yaradıcı əməkdaşlığı genişləndirməkdir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə tanınmış incəsənət xadimləri, sənətşünas və gənc ifaçılardan ibarət nümayəndə heyəti forumda iştirak edir.

İyunun 27-də II Beynəlxalq Maqom Sənəti Forumunun açılış mərasimi olub.

Mərasimdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, UNESCO-nun 42-ci sessiyasının sədri Simona Mirela Mikulesku, ICESCO-nun baş direktoru Salim əl-Malik, TÜRKSOY-un baş katibi Sultan Raev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotu Raimkulova, TürkPA-nın sədri Mehmet Süreyya Ər, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev, Tacikistan Prezidentinin köməkçisi Abdullo Rahmonzoda, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutov, MDB baş katibinin müavini Nurlan Seytimov, Asiya Regionu üzrə Beynəlxalq Folklor Təşkilatının baş katibi Mun Hön Suk və digər rəsmilər, Özbəkistanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Prezident Şavkat Mirziyoyev çıxış edərək forum iştirakçılarını, o cümlədən beynəlxalq təşkilatları və ayrı-ayrı ölkələri təmsil edən fəxri qonaqları adbaad salamlayıb. Dövlət başçısı pandemiya ilə bağlı müəyyən fasilədən sonra ikincisi təşkil olunan forumun əhəmiyyətindən, Özbəkistanda qədim və zəngin tarixi olan maqom sənətinin inkişafına, mədəni irsə dövlət qayğısından, bu sahədə keçirilən beynəlxalq tədbirlərdən bəhs edib.

Mərasimdə ICESCO-nun baş direktoru Salim əl-Malik, UNESCO-nun 42-ci sessiyasının sədri Simona Mirela Mikulesku da çıxış ediblər.

Çıxışlardan sonra konsert proqramı təqdim olunub.

***

Forum çərçivəsində iyunun 28–29-da "Maqom sənətinin inkişaf perspektivləri: nəzəri və praktiki əsaslar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcək.

28-29 iyun tarixlərində həmçinin forum çərçivəsində maqom ifaçılığı müsabiqəsi təşkil olunacaq. Müsabiqədə ölkəmizi gənc xanəndələr Nisbət Sədrayeva və Səfalı Mirzəliyev təmsil edəcək. Onları Ruslan Zərbəliyev (tar), Pərviz Fərhadov (kamança) və Siyavuş Fərhadov (nağara) müşayiət edəcək.






Müsabiqə iştirakçılarını Azərbaycan, ABŞ, Misir, Türkiyə, Özbəkistan və Hindistandan musiqi xadimlərinin yer aldığı münsiflər heyəti qiymətləndirəcək. "Ən yaxşı maqom ansamblı", "Ən yaxşı instrumental solo", "Ən yaxşı vokal solo" nominasiyalarının qalibləri forumun Təşkilat komitəsi tərəfindən pul mükafatı, diplom və heykəlciklərlə təltif olunacaqlar.

***

Qeyd edək ki, müsabiqənin baş mükafatı (Qran-pri) üçün 15 000 ABŞ dolları, I yer üçün (solo ifa və ansambl nominasiyaları) 10 000 dollar, II yer üçün (solo ifa və ansambl) 7 000 dollar, III yer üzrə (solo ifaçı və ansambl) 5 000 dollar məbləğində mükafat nəzərdə tutulub.

Bundan əlavə, iştirakçıları dəstəkləmək və həvəsləndirmək məqsədilə "Ən yaxşı solist – maqom ifaçısı", "Ən yaxşı musiqiçi – maqom ifaçısı", "Maqom sənətində ən yaxşı müəllim", "Ən yaxşı maqom təbliğatçısı", "Ən yaxşı gənc maqom ifaçısı" və "Ən yaxşı maqom bəstəkarı" kimi nominasiyalar üzrə iştirakçılar üçün də hədiyyə və mükafatlar təqdim olunacaq.

Forum gedişində Özbəkistanın 14 regionunun mədəniyyət nümunələrinin yer aldığı pavilyonlarda müxtəlif səpkili sərgilər də keçiriləcək.

İyunun 30-da II Beynəlxalq Maqom Sənəti Forumunun bağlanışı və müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi olacaq.

Xatırladaq ki, I Beynəlxalq Maqom Sənəti Forumu 2018-ci ilin 6-10 sentyabr tarixlərində Özbəkistanın Şəhrisəbz şəhərində təşkil olunmuş və ölkəmizi təmsil edən "Muğam" instrumental qrupu birinci yeri qazanmışdı.

## Ordumuzun bayramı qürur hissi ilə qeyd edilib

26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü bölgələrdə böyük Zəfər ruhu və qürur hissi ilə qeyd olunub. Tədbirlərdə 106 yaşlı Ordumuzun ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası zamanı göstərdiyi misilsiz qəhrəmanlıq dönə-dönə vurğulanıb, şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.



Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Daxili Qoşunların Qubada yerləşən N saylı hərbi hissəsində Silahlı Qüvvələrimizin yaradılmasının 106-cı ildönümünə həsr edilmiş konsert proqramı keçirilib.

Başir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin "Şahdağ" instrumental ansamblının hazırladığı rəngarəng proqram alqışlarla qarşılanıb. Ansamblın gənc və istedadlı solistləri ilə yanaşı, şəhər Uşaq musiqi məktəbinin xor kollektivi, solo ifaçıları, eləcə də Xaçmaz, Qusar, Şabran və Siyəzəndən olan incəsənət ustalarının ifaları əsl bayram ab-havası yaradıb, hərbçilərimizə unudulmaz hisslər yaşadıb.

davamı səh. 4-də

## Bir Səfa söhbəti

Müsahibimiz Xalq artisti, ADMİU-nun Səhnə danışığı kafedrasının müdiri professor, Prezidentin fərdi təqaüdçüsü Məmmədsəfa Qasımovdur.



"Yuğ teatrı mənim üçün teatrdan daha çox bir kino estetikasıdır. Yeganə məkandır ki, tamaşaçı ilə üz-üzə, göz-gözəsən. Qaçmaq mümkün deyil. Tamaşaçının gözündə iri plandasan. Bu teatr elə bil ki, kinoya bir qapı idi mənim üçün. Bu gün də belədir və onun teatr variantını, estetikasını özüm üçün müəyyənləşdirməmişəm. Bəlkə də bu məkanın balaca olmasından, tamaşaçı ilə yaxın ünsiyyətindən irəli gəlir. Yəqin tale, qismət də belə gətirib ki, bizə belə kiçik, dar məkanlar nəsib olub. Heç vaxt iri, akademik teatrların binaları kimi binalarımız, tamaşaçı ilə o teatrlardakı kimi məsafəmiz olmayıb. Bu mənada Yuğ mənim üçün digər teatrlardan köklü şəkildə fərqlənib...".

səh. 5

Moskva Quberniya Teatrı "Ailə rəsmi"ni göstərib



səh. 3



Ələkbər Tağıyevin 100 illiyinə həsr olunan musiqi axşamı

səh. 5



Qaraqalpaq kuklaçıları Bakı səhnəsində

səh. 5

№47-48 (2113)
28 iyun 2024
www.medeniyyet.az

# Konstitusiya Məhkəməsi qərarını verdi – Milli Məclis buraxıla bilər

İyunun 27-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxılıb.

İclasda sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladov, cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev və ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

Sonra məruzəçi hakim, Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" parlamentin 2024-cü il 21 iyun tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinin 1-ci hissəsinə uyğunluğunun yoxlanılmasını xahiş edib. Azərbaycan Respublikası Prezidentinin sorğusunda göstərilib ki, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 105 səs çoxluğu ilə parlamentə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə qərar qəbul olunub. Həmin qərarla Azərbaycan Respublikasının Prezidentindən Milli Məclisin Azərbaycan Respublikasının Konstitusiyasının 98.1-ci maddəsinə əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilib.



Azərbaycan Respublikasının Prezidentinin sorğusunda habelə bildirilir ki, Milli Məclisin qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl hazırkı şəraitdə parlamentin buraxılmasının və növbədənkənar seçkilərin təyin edilməsi təşəbbüsünün Konstitusiyaya uyğunluğuna dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zəruridir.

Sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov çıxış edərək bildirib ki, Milli Məclisin qərarında əsaslı olaraq çox vacib məsələlər, problemlər qaldırılıb. O qeyd edib ki, xüsusilə də Konstitusiya Məhkəməsinin 2019-cu il 4 dekabr tarixli Qərarında çox maraqlı bir məsələyə toxunulub: "Konstitusiya Məhkəməsi həmin qərarında qeyd edir ki, Milli Məclis təbii olaraq deputatların mütləq əksəriyyəti ilə öz qərarlarının, öz işinin aparıb-apara bilməyəcəyi barədə qərar qəbul etməyə səlahiyyətlidir. Həmin qərardan bizim anlayışımız ondan ibarətdir ki, biz bu məsələdə Milli Məclisin həmin qərarını əsas götürüb ona hörmətlə yanaşmalıyıq. Bu halda Milli Məclis 105 səs çoxluğu ilə qərara gəlmişdir ki, seçkiləri daha əvvəl keçirmək daha məqsədəmüvafiqdir. Biz də hesab edirik ki, bu mövqe əsaslıdır".

Cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev parlamentin müzakirə olunan qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğu məsələsi ilə bağlı danışıb. Konstitusiyanın 98.1-ci maddəsinin parlamentin bu məsələ ilə bağlı müraciət etmək hüququnu məhdudlaşdırmadığını vurğulayan Fərid Hacıyev deyib: "Bu da nəzərə alınmalıdır ki, Milli Məclisin qərarında qeyd olunduğu kimi, COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçılmazdır".

Milli Məclis Aparatının rəhbəri bildirib ki, bu baxımdan seçkilərin vaxtından əvvəl keçirilməsi vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakını təmin edəcək. Beləliklə, Konstitusiyanın 56-cı maddəsində təsbit edilmiş vətəndaşların seçki hüququna təminat veriləcək. Bu, eyni zamanda, deputatlığa namizədlərin seçkiqabağı təşviqatı rahat şəkildə aparmalarına imkan yaradacaq.

İclasda ekspert qismində çıxış edən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov diqqətə çatdırıb ki, bu ilin noyabrında bir çox ölkələrdən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcək. Ekspert vurğulayıb ki, bu baxımdan həm parlament seçkilərinin, həm də adıçəkilən tədbirlərin yüksək səviyyədə təşkili böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, həmin dövrdə Milli Məclisin ölkənin ərazi bütövlüyünün bərpasından sonra yeni tərkibdə təmsil olunması parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normativ fəaliyyətin davamı olaraq həyata keçirilməsi üçün Milli Məclisin çağırışının tam formalaşması zəruridir.

Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə bağlı qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

Müşavirədən qayıtdıqdan sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını elan edib.

Qərarda deyilir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinə uyğun hesab edilməlidir.

Qəbul edilmiş qərar elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

## Bəzi seçki dairələrinin hüdudlarında və adında dəyişikliklər olunub

Azərbaycan Respublikası ərazisində bəzi seçki dairələrinin hüdudlarında və adında dəyişikliklər olunub.

Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) iyulun 27-də keçirilən iclasında qərar qəbul olunub.

İclasda "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" 2023-cü il 5 dekabr tarixli Qanunla əlaqədar olaraq bəzi seçki dairələrinin hüdudlarında dəyişiklik edilməsi məsələsinə baxılıb.

Komissiya sözügedən qanunu və Seçki Məcəlləsinin tələblərini əsas götürərək, habelə yerli və digər şərait nəzərə alınmaqla seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyini diqqətdə saxlayaraq 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd və 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarında və adlarında qismən dəyişikliklər olunmasına qərar verib.

Qərara əsasən, yuxarıda qeyd edilən seçki dairələri müvafiq olaraq 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 118 saylı Ağdam-Xocalı, 119 saylı Ağdam və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi adlandırılıb.

Qeyd edək ki, ölkədə ümumilikdə 125 seçki dairəsi var və hər dairə üzrə Milli Məclisə bir deputat seçilir.

## Səhnəmizin ağ çiçəyi

*əvvəli səh. 1-də*



Roza Cəlilova 1929-cu il mayın 17-də Qubada anadan olub. 1947-ci ildə Bakı Xoreoqrafiya Məktəbini bitirib. İki il Opera və Balet Teatrının balet truppasında çalışıb. 1949-cu ildə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblında fəaliyyətini davam etdirib. 1965–1975-ci illərdə ansamblın rəqs qrupuna rəhbərlik edib.

Rəqqasə uzun illər xoreoqraf kimi də fəaliyyət göstərib. 1989-cu ildə yaratdığı "Gülüstan" mahnı və rəqs ansamblı ilə bir sıra ölkələrdə qastrolda olub. Sənətkarın repertuarında Azərbaycanın milli rəqsləri ilə bərabər, ərəb, fars, hind və bir sıra başqa xalqların rəqsləri də yer tutub.

Sənətkarın Azərbaycan rəqs sənətinin inkişafına verdiyi töhfələr Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. O, "Xalq artisti" fəxri adına, "Şərəf" və "Şöhrət" ordenlərinə, Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Qeyd edək ki, Roza Cəlilova 95 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin fəxri diplomu ilə təltif olunub. Mədəniyyət naziri Adil Kərimli və nazirliyin məsul əməkdaşları mayın 18-də sənətkarı evində ziyarət edərək ona yubileyi münasibətilə təbriklərini çatdırmış və fəxri diplomu təqdim etmişdilər.

## Silahlı Qüvvələr Günü münasibətilə

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Badamdar, Balaxanı, Pirşağı Mədəniyyət evlərinin birgə təşkilatçılığı ilə Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbir keçirilib.

Badamdar qəsəbə Mədəniyyət evində təşkil olunan tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər müasir Azərbaycan Ordusunun qurulması, inkişafı və möhkəmləndirilməsindən, 44 gün ərzində əldə olunan tarixi Zəfərdən danışıblar.

Bədii hissədə Mədəniyyət evlərinin solistləri vətənpərvərlik ruhlu mahnılar səsləndiriblər.

***

Suraxanı rayon Heydər Əliyev Mərkəzində "Müasir Azərbaycan Ordusunun qurucusu" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Suraxanı rayon təşkilatının üzvləri, qazilər, FHN Akademiyasının kursantları və başqa qonaqlar iştirak ediblər.

Çıxış edənlər Azərbaycan Ordusunun yaradılması tarixindən, Ümummilli lider Heydər Əliyevin dövlətçilik təcrübəsindən, uzaqgörən siyasətindən söz açıblar. Qeyd olunub ki, Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə ordu quruculuğu məsələlərinə xüsusi diqqət yetirib.

Ulu öndərin ordu quruculuğundakı xidmətlərindən və Silahlı Qüvvələr Günündən bəhs edən sənədli film nümayiş olunub.

## "Canım Azərbaycanım" – Tarix Muzeyində tədbir

Milli Azərbaycan Tarixi Muzeyində "Sübhnur" tədris mərkəzi ilə birlikdə Silahlı Qüvvələr Gününə həsr olunmuş "Canım Azərbaycanım" adlı tədbir keçirilib. Tədbirdə hərbçilər, qazilər, ictimai xadimlər və muzeyin əməkdaşları iştirak ediblər.

Dövlət Himni səsləndirildikdən sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Muzeyin əməkdaşı Aynur Babayeva, muzeyin Vətən müharibəsi fondunun müdiri Şəfa Mövsümov, "Sübhnur" tədris mərkəzinin təsisçisi və rəhbəri Gülnarə Hüseynova, mədəniyyət işçisi İradə Əlili, "Dayaq" Vətən Müharibəsi Əlillərinə və Şəhid Ailələrinə Dəstək Təşkilatının sədr müavini Ramin Şirinov və başqaları çıxış ediblər.




Tədbirin bədii hissəsində tədris mərkəzi şagirdləri vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, musiqi və rəqs nömrələri ilə çıxış ediblər. Gənc ifaçılar Mələk Məmmədova və Mirsahil Məmmədli muğamlarımızdan parçalar oxuyublar. 3 nömrəli Respublika xüsusi internat məktəbinin sağlamlıq imkanları məhdud uşaqlarının da çıxışları dinlənilib. Sonda bütün iştirakçılara sertifikatlar təqdim olunub.

## Birinci Qarabağ müharibəsinin daha bir naməlum şəhidi

Birinci Qarabağ müharibəsinin şəhidi Zeynalov Ucar Fidail oğlunun cəsədinin qalıqları iyunun 27-də doğulduğu Göygöl rayonuna gətirilib.



Vida mərasimindən sonra şəhidin cəsədinin qalıqları Göygöl rayon Pənahlılar kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon ictimaiyyətinin nümayəndələri, qazilər, kənd sakinləri iştirak ediblər.

Şəhidin ruhuna dualar oxunub, məzarına tər güllər düzülüb, əklil qoyulub.

Xatırladaq ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası iyunun 25-də məlumat yayaraq aidiyyəti qurumların mütəxəssis heyəti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan daha 20 nəfərin şəxsiyyətinin müəyyən olunduğunu bildirmişdi.

Birinci Qarabağ müharibəsində müxtəlif yerlərdə naməlum şəhid kimi dəfn olunmuşdular. Həmin şəxslərin öz adları ilə, ailələrinin iştirakı ilə dəfn mərasimlərinin təşkili ilə bağlı işlər həyata keçirilir.

## Musiqi məktəbində şagirdlərin tamaşası

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbində macar yazıçısı Klara R.Hitsin "Peter musiqi alətləri diyarında" əsərinin tamaşası təqdim edilib.



Musiqi ilə dost olmaq, onu yaxından tanımaq istəyənlər üçün nağıl üslubunda yazılmış əsəri Azərbaycan dilinə Əməkdar mədəniyyət işçisi Aygül Qaradağlı tərcümə edib.

Məktəbin şagirdləri tərəfindən təqdim olunan tamaşada musiqi alətlərinin obrazı canlandırılıb.

Səhnə işi tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## SABAH qruplarının 10 illiyinə həsr olunan festival

Beynəlxalq Muğam Mərkəzində "SABAH" incəsənət festivalı keçirilib. 24-25 iyun tarixlərində gerçəkləşən festival SABAH qruplarının 10 illiyinə həsr olunub.

Qonaqlar mərkəzin foyesində Azərbaycan Memarlıq və İnşaat Universiteti SABAH qruplarının memarlıq ixtisası üzrə təhsil alan tələbələrinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası SABAH qruplarının dizayn və dekorativ-sənət ixtisası üzrə təhsil alan tələbələrinin layihə və əl işləri ilə tanış olublar.



Festival çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) SABAH qrupları tələbələrinin təqdimatında klassik musiqi axşamı olub. Bundan əlavə, ADMİU tələbələrinin ifasında Qurban Səidin "Əli və Nino" əsəri əsasında tamaşa nümayiş etdirilib.

Qeyd edək ki, SABAH abreviaturasının açılışı savadlı, bacarıqlı, hazırlıqlı deməkdir. Qruplar 2014-cü ildə 33 ixtisas üzrə respublikanın 34 ali təhsil müəssisəsinin bakalavr səviyyəsinin I kursunu müvəffəqiyyətlə bitirmiş və məhz qeyd olunan keyfiyyətlərə malik tələbələrdən formalaşdırılıb.

**Lalə**

# Həyatı Azərbaycan teatrının tarixi ilə bağlıdır...

## Xalq artisti Mərahim Fərzəlibəyovun 75 illik yubileyi qeyd olunub

İyunun 26-da Beynəlxalq Muğam Mərkəzində (BMM) Bakı Bələdiyyə Teatrının baş rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovun 75 illik yubileyinə həsr olunmuş gecə keçirilib.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, mədəniyyət nazirinin müavini Murad Hüseynov, tanınmış mədəniyyət xadimləri və sənətsevərlər iştirak ediblər.

Ordumuzun bayramına təsadüf edən tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Mərahim Fərzəlibəyovun yaradıcılığına həsr olunan sənədli film nümayiş etdirilib. Filmdə tanınmış incəsənət xadimlərinin rejissorun yaradıcılığı haqqında fikirləri yer alıb.




Filmin nümayişindən sonra Mədəniyyət Nazirliyinin yubilyar sənətkara təbrik məktubu oxunub.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifəsini icra edən Xalq artisti Hacı İsmayılov, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, millət vəkili, akademik Rafael Hüseynov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, görkəmli rejissorun yubileyi həm də teatr, teatr tariximiz və görkəmli teatr xadimlərimiz haqqında danışmaq üçün daha bir fürsətdir. Çünki onun sənət taleyi bu tarixlə birbaşa bağlıdır. Mərahim Fərzəlibəyov teatr sənətimizdə görkəmli aktyor və dramaturqlarla çalışıb. Rejissor təkcə Xalq yazıçısı İlyas Əfəndiyevin 11 pyesinə səhnə həyatı verib.

Yubiley tədbirində daha sonra Əməkdar incəsənət xadimləri – professor Məryəm Əlizadə, Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə, Dövlət Film Fondunun direktoru Cəmil Quliyev, Akademik Opera və Baleti Teatrının baş rejissoru Hafiz Quliyev, polkovnik Abdulla Qurbani və başqalarının çıxışları dinlənilib.

Sənət dostları Mərahim Fərzəlibəyovu xoşbəxt taleli rejissor adlandırıb, onun kino sahəsində fəaliyyətindən də söz açıb, təbriklərini çatdırıblar. Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə "Milli teatr mükafatı"nı sənətkara təqdim edib.

Mərahim Fərzəlibəyov yaradıcılığı göstərdikləri diqqətə görə gecənin bütün qonaqlarına minnətdarlığını bildirib.

BMM-in solistlərinin ifasında təqdim olunan konsert proqramı yubiley tədbirinə əlavə rəng qatıb.

Qeyd edək ki, Mərahim Fərzəli oğlu Fərzəlibəyov 1949-cu il iyunun 26-da Bakıda anadan olub. Səhnəyə orta məktəbdən maraq göstərib. Leninqradda (indiki Sankt-Peterburq) Dövlət Teatr, Kino və Musiqi İnstitutunun Rejissorluq fakültəsində ali təhsil alıb. Təyinatla 1975–1977-ci illərdə Çeçenistanın Qrozn şəhərindəki M.Lermontov adına Dövlət Rus Dram Teatrında quruluşçu rejissor işləyib.

1977–1981-ci illərdə Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru olub. Sonra taleyini Akademik Milli Dram Teatrına bağlayıb. Burada Azərbaycan və dünya klassiklərinin əsərlərinə uğurla quruluş verib. 2018-ci ildən Bakı Bələdiyyə Teatrının baş rejissorudur. "Qəm pəncərəsi", "O dünyadan salam" və s. filmlərdə yaddaqalan obrazlar da yaradan rejissor, həmçinin bir sıra ekran əsərinə quruluş verib.

**Lalə**

# Məmməd Arif Dadaşzadənin 120 illiyi ilə bağlı elmi sessiya

İyunun 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli ədəbiyyatşünas alim, tərcüməçi, pedaqoq, nasir, akademik Məmməd Arif Dadaşzadənin 120 illiyinə həsr olunmuş elmi sessiya keçirilib.

İnstitutun foyesində Məmməd Arif Dadaşzadənin həyat və fəaliyyətini əks etdirən sərgi açılıb.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli alimin XX əsr Azərbaycan ədəbi-tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında mühüm xidmətləri olduğunu deyib. Görkəmli elm xadiminin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yaranmasında, təşəkkülündə xüsusi rolunu diqqətə çatdıran İ.Həbibbəyli bildirib ki, 120 illiyə töhfə olaraq AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Məmməd Arif Dadaşzadənin əsərlərinin biblioqrafiyası çapa hazırlanır.



Vurğulanıb ki, Məmməd Arif Dadaşzadə yenilikçi mövqeyi ilə Azərbaycan ədəbiyyatşünaslığında iz qoyub. Onun XX əsr Azərbaycan dramaturgiyasının əsas yaradıcılarından biri olan Cəfər Cabbarlıya həsr olunmuş monoqrafiyası genişhəcmli elmi əsərlər sırasında xüsusi çəkiyə malikdir. "Səməd Vurğunun dramaturgiyası" adlı monoqrafiyası şairin yaradıcılığının öyrənilməsində etibarlı elmi bələdçidir.

Qeyd olunub ki, Məmməd Arif Dadaşzadə 1938-ci ildə Ədəbiyyat İnstitutunda şöbə müdiri, 1939-cu ildə direktor müavini vəzifələrində işləyib, iki dəfə bu elm ocağının direktoru olub. 1960-cı ildən ömrünün sonunadək Elmlər Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərib.

Tədbirdə daha sonra institutun şöbə müdiri professor Asif Rüstəmli "Ədəbiyyat İnstitutunun yaradılması və təşəkkülündə Məmməd Arif Dadaşzadənin yeri və rolu" mövzusunda məruzə ilə çıxış edib.

Həmçinin "Cəfər Cabbarlının yaradıcılıq metodu akademik Məmməd Arifin tədqiqatlarında", "Akademik Məmməd Arif Dadaşzadənin ədəbi-tənqidi görüşləri", "Səməd Vurğun irsi akademik Məmməd Arif Dadaşzadənin araşdırmalarında", "Akademik Məmməd Arif Dadaşzadə və ədəbi-mədəni mühit" mövzularından məruzələr dinlənilib.

Sonda görkəmli alimin nəvəsi – Bakı Musiqi Akademiyasının professoru Zümrüd Dadaşzadə babasının xatirəsinə göstərilən diqqətə görə AMEA rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirib.

# Paytaxtda bayram konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 26 İyun – Silahlı Qüvvələr Gününə həsr olunmuş konsert proqramı keçirilib.




Xətai rayon Heydər Əliyev parkında təşkil olunan konsertı şəhid ailələri, qazilər, rəsmilər, Vətən Müharibəsi Qəhrəmanları, ziyalılar, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, Milli Müdafiə Universitetinin kursantları izləyiblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səhnədə quraşdırılmış böyük ekranda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə bağlı kadrlar nümayiş etdirilib.

Konsert proqramında tanınmış incəsənət ustalarının ifasında vətənpərvərlik ruhlu musiqi nömrələri təqdim olunub. Bayram konserti tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# Moskva Quberniya Teatrı "Ailə rəsmi"ni Bakıda göstərib

Xəbər verdiyimiz kimi, Azərbaycanda Rusiya Mədəniyyəti Günləri çərçivəsində Moskva Quberniya Teatrı iyunun 25-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində "Ailə rəsmi" tamaşasını təqdim edib.

Əsər müəllif – böyük rus dramaturqu Aleksandr Ostrovskinin (1823–1886) 200 illik yubileyi çərçivəsində səhnələşdirilib və Moskva Quberniya Teatrında premyerası 2023-cü ilin noyabrında olub.

Dramaturqun 24 yaşında qələmə aldığı pyes teatr səhnəsinin nadir nümunələrindən biridir. Tamaşaya baxmaq bakılılar və Azərbaycan paytaxtının qonaqları üçün daha maraqlı idi.

Əvvəlcə "Ailə xoşbəxtliyinin rəsmi" adlanan əsərin taleyi mürəkkəb olub, o, iki dəfə senzuranın "dəyirmanı" altına düşüb.



1855-ci ildə işıq görüb və premyera Sankt-Peterburqdakı Aleksandrinski Teatrının səhnəsində baş tutub.

Rejissor Olqa Matveyeva və teatrın kollektivi tamaşa üçün senzura tərəfindən təhrif olunmayan materialdan istifadə ediblər. Rejissorun özünün qeyd etdiyi kimi, "Ailə rəsmi"ndə artıq Ostrovskinin ecazkar rus dilini, atalar sözünə sevgisini, personajlarının bəzi "şirin" adlarına məhəbbətini hiss etmək olar.

"Ailə rəsmi" bir növ eskizdir, lakin müasir dövrə çox uyğundur. Burada kişi və qadın münasibətləri, nəsillər arasında ailə bağları və dürüstlük mövzusu aktualdır. Tamaşa ata evindən qaçıb evlənmək istəyən 19 yaşlı Mariya Antipovnanın hekayəsindən bəhs edir. Qız yaşadığı divarlar arasında sıxılır. Böyük qardaşı ona oğlan tapır, o, tacir Paramon Ferapontoviç Şiryalovu seçir. Onun qoca olması isə vecinə deyil ki, təki pulu çox olsun.

Rejissorun planına görə, tamaşaçılar sanki özlərini kiçik bir muzeydə – XIX əsrdə tacir həyatını əks etdirən sərgidə hiss edirdilər, burada işçilər ziyarətçilər üçün o dövrün tacir həyatının mənzərələrini göstərirdilər. Muzeyin gözətçiləri öz sərt qara paltarlarının üstünə parlaq geyim əşyaları, şərflər və şallar geyinir, mühafizəçilər jiletlər və paltolarda gəzir və tamaşaçıların gözü qarşısında Ostrovskinin mətni xüsusi fonda təqdim olunur.

Bakı səhnəsindəki tamaşaya baxanlar Anna Tsang, Mixail Şilov, Sergey Verşinin, Aleksandrina Pitirimova, Alina İvax və başqalarının aktyorluğunu yüksək qiymətləndiriblər. Tamaşanın sonunda alqış sədaları uzun müddət davam edib.

# Şəhid ailələrinin üzvləri Cəbrayıl və Zəngilanda olublar

26 İyun – Silahlı Qüvvələr Günü bir qrup şəhid ailəsi üzvü Cəbrayıl və Zəngilan rayonlarında olub.



Səfər "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin və Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarətmə Xidmətinin təşkilatçılığı ilə gerçəkləşib.

Şəhid ailələrinin üzvləri Cəbrayıl rayonunda tarixi Xudafərin körpüsü önündə xatirə şəkilləri çəkdiriblər.

Zəngilan şəhər məscidində namaz qılınıb, dualar edilib. Qonaqlar Zəngilan Konqres Mərkəzinin timsalında rayonda görülən quruculuq işləri ilə və keçmiş məcburi köçkünlərin Ağalı kəndindəki həyat şəraiti ilə tanış olublar. Birinci Qarabağ müharibəsi Şəhidlərinin xiyabanı da ziyarət edilib.

Ağalı kəndində sakinlər və şəhid ailələrinin üzvləri üçün konsert proqramı təşkil olunub. Əməkdar artisti Sevinc Sarıyeva və müğənni Tural Salmanovun ifaları, vətənpərvərlik ruhlu mahnılar alqışlarla qarşılanıb.

# Sumqayıt səhnəsində "Xeyir xəbər"

Sumqayıt Dövlət Dram Teatrında səhnəyə qoyulan və 44 günlük Vətən müharibəsinə həsr olunan yeni tamaşa iyunun 25-də, Silahlı Qüvvələr Günü münasibətilə nümayiş olunub.



Əməkdar incəsənət xadimi Əli Əmirlinin "Xeyir xəbər" dramı əsasında hazırlanan eyniadlı tamaşa müharibənin psixoloji tərəflərini göstərir. Birhissəli lirik-psixoloji qəhrəmanlıq dramında tamaşaçı bir ailənin timsalında qələbəyə gedən yolun əziyyətlərini, sarsıntılarını, itkilərini izləmiş olur.

Tamaşa Mədəniyyət Nazirliyinin yaradıcı gənclərə dəstəyi çərçivəsində teatra tövsiyə olunan gənc rejissor Fuad Cavadzadənin ilk işidir. Tamaşanın quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyevdir.

Zəfər sorağı ilə bitən tamaşada izləyici sadə insanlar – Murad, Hümbət, Gülüstan, Anaqız, Cəmil, Hüseynalı kişi və başqa sadə insanların simasında müharibə, Vətən, torpaq, şəhid, qazi anlayışlarına müəllifin böyük emosionallığı olan münasibətini görür.

Rolları Əməkdar artist Elmira Kərimova, aktyorlar Habil Xanlarov, Şəmistan Süleymanlı, Aynur Hümbətova, Elay Xasıyev, Siyavuş Mahmudov, Məryəm Hüseynli və Akif Mirzəyev ifa ediblər.

Şəhər ictimaiyyəti və teatr xadimlərinin izlədiyi səhnə nümunəsi maraqla qarşılanıb.

# Türkiyənin ilk astronavtı "Baku ID" innovasiya festivalında

27-28 iyun tarixlərində "Bakı Kristal Zal"da SABAH.HUB İnnovasiya Mərkəzinin dəstəyi ilə yaradılmış Azərbaycanın və regionun əsas startap tədbiri olan "Baku ID" ("Baku Investment Day") innovasiya festivalı keçirilir.

SABAH.HUB-ın baş icraçı direktoru Rəhim Bayramlı builki "Baku ID" tədbirinə 200-dən artıq yerli və xarici investorun, 100-dən çox xarici və yerli startapın, 50-dən artıq tərəfdaşın qatıldığını bildirib.

Tədbir çərçivəsində Türkiyənin ilk astronavtı, hərbi pilot Alper Gezeravcının media nümayəndələri ilə görüşü keçirilib. O, "Baku ID" tədbirinin əhəmiyyətindən danışıb.

Qeyd edək ki, Alper Gezeravcı "Baku ID"nin "Kosmik innovasiya: biznes strategiyalarının cəmiyyətin tələbləri ilə uyğunlaşdırılması, təxirəsalınmaz çağırışlar, Yer kürəsində həyatın yaxşılaşdırılması" panelində iştirak edib.

Panel müzakirəsinin sonunda tədbir iştirakçıları üçün Alper Gezeravcı ilə avtoqraf sessiyası olub.

# Ukraynalı uşaqlar Şəkinin görməli yerlərini gəziblər



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən və sosial-psixoloji reabilitasiyaya cəlb edilən ukraynalı uşaqlar iyunun 26-da Şəkinin tarixi məkanları və görməli yerləri ilə tanış olublar.

Ukraynalı uşaqların qədim Şəki ilə tanışlığı "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisindən başlanıb. Qonaqlara məlumat verilib ki, qədim Şəki diyarı dünya əhəmiyyətli tarixi-memarlıq abidələri ilə məşhurdur. Hər il şəhərdə beynəlxalq səviyyəli bir neçə festival keçirilir.

Qoruğun ərazisində yerləşən XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsi – Şəki Xan sarayı ilə tanışlıq uşaqlarda böyük maraq oyadıb. Onların diqqətinə çatdırılıb ki, "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Qoruğun ərazisində yerləşən və inşa tarixi XVIII əsrin sonlarına aid edilən "Yuxarı Karvansara" mehmanxana-kompleksi ilə tanışlıq zamanı məlumat verilib ki, Şərq memarlığı üslubunda tikilən bu kompleks üç yüzədək otaq və zirzəmidən ibarətdir. XVIII–XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən Şəkiyə gələnlər əsasən bu karvansarada qalır, ticarətlə məşğul olurdular. Bildirilib ki, hazırda tikili mehmanxana kimi fəaliyyət göstərir.

Şəkinin tarixi məkanları ilə tanışlıq ukraynalı uşaqların böyük marağına səbəb olub.

Ukraynalı uşaqlar Qəbələyə də səfər ediblər. Şəki-Qəbələ turundan əvvəl isə onlar Bakının görməli yerləri, tarixi-mədəni məkanlar ilə tanış olublar.

№47-48 (2113)
28 iyun 2024
www.medeniyyet.az

# Ordumuzun bayramı qürur hissi ilə qeyd edilib



əvvəli səh. 1-də

Quba Tarix-Diyarşünaslıq Muzeyində Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbirdə çıxış edənlər 1918-ci ilin 26 iyununda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk milli diviziyanın yaradılması ilə başlanan tarixdən söz açıblar. Qeyd olunub ki, bu gün müzəffər Ordumuz xalqımızın qürur mənbəyidir. Qonaqlar muzeydə əlamətdar günə həsr olunmuş sərgi ilə tanış olublar.

***

Şirvan şəhər Heydər Əliyev Mərkəzində Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid ailələri və müharibə iştirakçıları ilə görüş keçirilib. Dövlət Himni səsləndirilib, Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Silahlı Qüvvələr Gününə və Ulu öndərin milli ordu quruculuğunda roluna həsr olunmuş "Heydər Əliyev: Vətənin keşiyində" sənədli filmi nümayiş olunub. Çıxışlarda vurğulanıb ki, dahi rəhbərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda regionun ən güclü ordusu formalaşıb.

Şirvan Şəhər Mədəniyyət Mərkəzi, Dövlət Rəsm Qalereyası, Uşaq musiqi məktəbi, Mərkəzi Kitabxanası, həmçinin Salyan rayon Heydər Əliyev Mərkəzində Silahlı Qüvvələr Gününə həsr olunan konsertlər, sərgi və dəyirmi masalar təşkil edilib.









Tədbirlərdə Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi, son illərdə ordu quruculuğu sahəsində əldə olunmuş uğurlar və müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması haqqında söhbət açılıb.

Biləsuvar, Neftçala və Hacıqabul rayon mədəniyyət müəssisələrində də Silahlı Qüvvələr Gününə həsr olunan silsilə tədbirlər keçirilib.

***

Astara rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində keçirilən bayram tədbirində qeyd olunub ki, hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biri onun ordusudur. Zamanın sınağından alnıaçıq, üzüağ çıxan Silahlı Qüvvələrimiz ölkəmizə qarşı istənilən hücumun qarşısını almağa qadirdir. Sonda gənclərin təqdimatları dinlənilib və sualları cavablandırılıb.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Dünya hərb tarixinə yeni səhifə yazan qüdrətli Azərbaycan Ordusu" adlı tədbir təşkil edilib. Çıxışlarda Azərbaycan Ordusunun yaranma tarixindən, Ulu öndər Heydər Əliyevin hələ ölkəmizə rəhbərliyinin birinci dövründə bu sahəyə xüsusi diqqət yetirməsindən bəhs olunub. Sonra "Şuşa, sən azadsan!" filmi nümayiş etdirilib. Tədbir iştirakçıları "Ordumuz qürurumuzdur!" adlı sərgi ilə də tanış olublar.

Əlamətdar günlə bağlı Lerik rayon Heydər Əliyev Mərkəzində rayon Gənclər və idman sektoru və Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə tədbir keçirilib. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin 23 may 1988-ci il tarixli sərəncamı ilə 1918-ci ildə yaradılmış Əlahiddə Azərbaycan Korpusunun təşəkkül tapdığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü kimi təqvimimizə yazılıb.

***

Şuşa şəhərindəki yeni yaşayış kompleksində Silahlı Qüvvələr Günü münasibətilə I və II Qarabağ müharibəsi qaziləri, şanlı Ordumuzun nümayəndələri üzvləri, şəhid ailələri ilə görüş keçirilib. Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzovun iştirakı ilə keçirilən görüşdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qazilər keçdikləri döyüş yolu, qəhrəmanlıq hekayələri barədə danışıblar.

***

Silahlı Qüvvələr Günü münasibətilə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən müəssisələr tərəfindən silsilə tədbirlər təşkil edilib. Tədbirlərdə bizə əbədi Zəfər ruhu bəxş edən, 44 gündə 30 illik işğala son qoyan Silahlı Qüvvələrimizin dövlətimizin və xalqımızın güvənc yeri olduğu bildirilib.

**Hazırladı: N.Məmmədli**

## "Vətən – böyük əmanət" kitabının təqdimatı



İyunun 25-də Göyçay rayon Mədəniyyət Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair Ətraf Sərrafın şəhidlərə həsr olunmuş "Vətən – böyük əmanət" adlı kitabının təqdimat mərasimi keçirilib.

Mərasimdə çıxış edən rayon icra başçısının müavini Zivər Zeynalova deyib ki, qəhrəman şəhidlərimizə həsr edilmiş kitabın təqdimatının Ordumuzun bayramı ərəfəsində keçirilməsi xüsusi önəm daşıyır.

Adil Məmməd, Əkbər Əlisoy, Xeyrəddin Qoca, Şəmsiyyə Qaramanlı qələm yoldaşlarının yaradıcılığından söz açıblar.

Məktəblilər və bədii qiraətçi Əli Səfalı kitabdan şeirlər söyləyiblər. Sonda kitab şəhid ailələrinə və tədbir iştirakçılarına təqdim olunub.

# Şuşanı görməli və... ardını yaşamalı!



*...Axır ki, bizə də Şuşa yolu göründü: Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi və qala-konsert Şuşada olacaqdı. Bəndəniz də "Mədəniyyət" qəzetinin təmsilçisi kimi qaliblər, münsiflər, təşkilat komitəsinin üzvləri və bir neçə televiziyonçu həmkarı ilə birlikdə Şuşaya yola çıxdı.*

Səfər proqramımız ürəyimdən keçən qədər geniş deyildi: vaxt məhdud, səfər yoldaşlarımın görəcəyi işlər mənim Şuşada gəzib görmək arzuladıqlarımla tərs-mütənasib. Nə isə, fikirləşirəm ki, o qədər də dərin əcnəbi dil biliyim olmadan yolum düşən uzaq şəhərlərdə baş çıxarmışamsa, doğma Şuşada da heç karıxmaram.

Beləcə, iyunun 8-də, demək olar ki, gün günortaya varanda Bakıdan yola çıxdıq. Nə edəsən, müsabiqə qaliblərinin adları münsiflərin saatlarla sürən gənəşməsindən sonra gecədən xeyli keçmiş məlum olubsa, onların səhər erkən səfərə hazır olacaqlarını gözləmək ağlabatan görünmürdü.

## Yolumuz Zəfər yoludur

Bizi istidən sərinə doğru aparan komfortlu avtobus Bakıdan çıxıb bölgələrimizi geridə qoyduqca yol, məni ildən-ilə köç edən bir arzumun gerçəkləşməsinə yaxınlaşdırır.

Tezliklə yeni Füzuli şəhərinin çoxmərtəbəli binaları görünür. "Şuşa – 70 km" lövhəsinə gözlərim sataşan kimi təxminən 6 saatlıq yolun yorğunluğu bir anda çəkilir. Bizi Şuşaya aparan gah yoxuşlu, gah enişli yol, sərt və iri nəqliyyat vasitəsi üçün yetərincə qısa döngələrin doğurduğu təlaş yamyaşıl dağ yamaclarının gözəlliyindən zövq almağa mane olmur. Əksinə! Yumşaqlığına görə çobanyastığı, formasına görə bu yerlərdə mollabaşı (ağ əmmanəni xatırlatdığı üçün) adlanan, bir adı da ağkirpik olan çiçəklər xalı kimi dolanbaclı yol qırağına sərilib. Qəfil yağış başlayır. Əslində, bu yol üçün, zirvələrə sığınmış Şuşa üçün gündə bir neçə dəfə yağışın yağması adi haldır.

Biz isə yolumuzdan qalmırıq. Peşəkar sürücümüz də deyəsən, təbiətin bu təşviş doğuran şıltaqlığına alışıb, göy gurultusu, ildırım çaxması ilə müşayiət olunan yağışın altında bəmbəyaz ləçəkli ağkirpiklər iri yağış damlalarının hökmülə sanki sərnişinlərə göz vurub, "hə, necədir, Şuşa yolu xoşunuza gəlir" deyə xəbər alırlar. Biz də özümüzü tox tutub "Zəfər yolu ilə qalxırıq, nədən qorxacağıq ki?!" deyə cavab veririk.

Nəhayət, axşamüstü mənzil başına yetişirik. Sənədləşmə, yerləşmə. Hostelə girər-girməz eyvana yüyürüb tanımadığım doğma şəhərə nəzər salıram. Şəhərdə küçə işıqlandırma sistemi normal çalışsa da, işıqların topa-topa bərq vurması deyir ki, viran qalmış məhəllələr, yiyəsizlikdən dağılmış evlər, sahibinə həsrət həyətlər hələ də gecənin daha da tündləşdirdiyi qaranlığın içindədir.

Nə isə, Şuşa ilə tanışlığımız qalsın gün çıxana.

## Mən və içimdəki müsyö Jordan

Sübh tezdən eyvandan ətrafı seyr edəndə başımın üstündə qaranquşları gördüm. Hotelin abad həyətindən aşağı baxandasa… Eh, Şuşaya yatmağa gəlməmişəm ha! Şəhər hələ tam oyanmamışdı… Amma gül-çiçək, göy üzündəki əlçim buludlar, axşamkı yağışda yuyunub arınmış təbiətin öz gümrahlığı ritmi var.

Yolu tutub gedir, qarşıma çıxan gülü-çiçəyin şəklini çəkirəm. İlahi, ağkirpiklərin böyründə nə qədər lalə var!... Özü də mənim Bakıda, Abşeronda gördüyümdən az qala iki-üç dəfə iri lalə!

Bütün hasarlardan, çəpərlərdən itburnu kolları sallanır: çiçəkləri də ağ rəngdə: ta onun yeməli, yaxud sırf dekorativ növ olduğunu ayırd edə bilmirəm. İçimdəki müsyö Jordanın Şuşa təbiətinə vurğunluğu nəbati biliyimdən çoxdur deyə, adını bilmədiyim güllərin, ağacların şəklini dayanmadan çəkirəm. Amma adını bildiyim bir gül də var ki, onun axtarışındayam. Hələ ki, tapa bilmirəm.

## Şuşanı tanıma mərhələsi…

Səhər yeməyindən sonra şəhərə çıxıram. Bazar günü olsa da, şəhərin hər tərəfindən inşaat texnikasının uğultusu eşidilir. Betonqarışdıran maşınlar inşaat gedən obyektlərə gedirlər. Şuşada artıq bir neçə dəfə olmuş səfər yoldaşlarımın verdikləri istiqamət üzrə şəhəri təkcə gəzməyə çıxıram. Xəbərdarlıq da almışam: "Mina yoxdur, şəhər təmizlənib, amma dağıntılara, ot basmış həyətlərə keçməyin! Allah eləməsin, ilan, zəhərli cücü-filan olar...".



Yolboyu qarşıma çıxan xarabalıq mənzərələri adamın ürəyini sıxır. Baxırsan ki, bir ev abaddır, yeni son illərdə burada yaşayış olub. Amma onunla üzbəüzdə təkcə zamanın, baxımsızlığın yox, həm də erməni vandallığının dağıtdığı uçuq-sökük bir neçə ev var… İnsan necə eyvanından, pəncərəsindən xarabazarlığa baxaraq yaşaya bilər? Heç cür ağlıma sığmır. Öz sualıma özüm cavab verirəm: normal adam yaşaya bilməz, amma işğalçı, az qala dörd-beş arxa dönənin psixikasına yeridilmiş "sənin cənnətin türkün xarabazarındadır" ideyası ilə ömür sürən yaşayar...

## Şuşanın ovqatı

Qala divarlarına tərəf, üzüaşağı gedirəm. Yolboyu qarşıma çıxan hər evin, hər həyətin qapısına vurulan lövhələr adamı arxayınlaşdırır: "Yoxlanılıb, mina yoxdur". Hasarlardan küçəyə baxımsızlıqdan yabanılaşmış fındıq, ərik ağaclarının kal meyvəli budaqları sallanır, itburnu kolları çiçəkləri ilə birgə tikanlarını döyüşə hazır vəziyyətdə ayaq saxlayanlara nümayiş etdirir.

Görəsən, ağacların, çoxillik bitkilərin yaddaşı var? Əgər varsa, bax, elə divarlarının yarısı qalmış Məşədi Novruzun evinin ikinci mərtəbəsini basmış yabanı bitkilər, lalələr nələrdən danışardı? Bu qəribə söhbəti təsəvvür edəndə ürəyim sıxılır. Erməni əsirliyini görmüş soydaşlarımızın xatirələri yadıma düşür… Belə bir psixoloji paralel nə qədər ağlabatandır, düzdür, bilmirəm… Amma ilk ağlama gələn budur.

## Gəl, bir şəkil çəkdirək, Böyük KİŞİ!

Qala divarına tərəf endikcə hələlik öz abadlıq növbəsini gözləyən dağıntıların ardınca qarşıma bağ çıxır. Bir an elə bilirəm ki, Böyük Britaniyanın hansısa abbatlığında yaşı bir əsrdən çox olan malikanənin həyətinə keçmişəm. Dekorativ güllük-filan yoxdur, sadəcə, çoxillik ağaclar, səliqə ilə biçilmiş otluq. Genişliyin içində bir möhtəşəm heykəl ucalır – Üzeyir bəyin heykəlidir. Heykəl Şuşa azadlığına qovuşandan sonra dövlət başçımız İlham Əliyevin göstərişi ilə yenidən düzəldilib və əvvəlki yerində, Natəvan parkında ucaldılıb. Nə yaxşı ki, yaxınlıqda bir nəfəri görürəm. Oğlunun bu sakit guşədə fotosessiyasını edən bir nəfərdən xahiş edirəm ki, Üzeyir bəyin heykəlinin yanında məni də tarixə salsın.

## Cıdır düzü, axtardığım burada da yoxdur...



Həmkarlarımla yığışıb Cıdır düzünə gedirik. Konsertə qalan saatları mənalı keçirmək istəyirik. Cıdır düzündə gördüyüm mənzərə məni bir qədər çaşdırır. Sanki bütün Azərbaycan buradadır.

…Nəvələrinin qollarından sallaşıb gələn ahıl qadının bəlkə də son arzusudur Şuşanı, Cıdır düzünü bir də görmək…

…Körpəsi qucağında Cıdır düzünü ziyarət edən gənc ananın da buraları görmək üçün səbəbi var: çünki qarşıdakı üç-dörd ildə buraları heç rahat gəzə bilməyəcək. Bir gözü ayaq tutub haralarasa dırmanmağa həvəsli övladında qalacaq. Süddişi çıxacaq deyə toppuş barmaqlarını qamaşan damağına sürtən bu balaca isə nə vaxtsa Şuşa şəkillərinə baxanda xatırlamadığı xatirələri danışacaq.

…Bir ayağını çəkərək çəliyinə söykənmiş yaxası medallı cavan da şəksiz qazidir. Bəlkə də sərt qayalıqlarla Cıdır düzünü fəth etmiş igidlərimizdəndir. Bu müqəddəs məkanın ziyarətçilərinə qoşulub ki, dinc dövrün Şuşasını yaddaşında saxlasın. Axsadığı üçün ayağını yerə bərk basmır, kim bilməsə də, o bilir ki, buranın hər qarışı bir igidin qanı ilə suvarıldığından bizim ayağımız bu yerlərə dəyir.

Burada da gözüm onu axtarır: tapmıram. Amma ta dözməyib soruşuram. Aldığım cavab qanımı qaraldır: "Axtarmayın. Hər gələn o qədər qopardı ki, bu il heç bitmədi, yəqin kökü kəsildi".

Mən Şuşanı özünə vətən seçmiş səhləb növünü – xarıbülbülü axtarırdım… Qoparmaq niyyətim yox idi, eləcə onu öz doğma torpağında görmək, bir atribut olaraq yox, kökü torpağa bağlı doğmam kimi ona salam vermək istəyirdim.

## Mənim gördüyüm Şuşa…

Şuşa səyahətimdən doymadım. Amma böyük tikinti meydanını xatırladan bu şəhərə tezliklə gəlmək istəməzdim. Ona görə yox ki, onsuz da baxımsızlıqdan yarasız hala düşmüş, ağır hərbi maşınların, indi də ağır inşaat texnikasının inlətdiyi şəhəriçi yollar adamı yorur, infrastruktur hələ tam inkişaf etməyib, şəhər nəqliyyatı yaradılmayıb.

Sadəcə, Şuşa aldığı ağır yaralardan sonra komaya düşüb illərlə əcəllə nəfəs-nəfəsə qalmış, amma haqqın hökmü ilə bir gün həyata qayıtmış xəstəyə oxşayır. Komada ikən onun yalnız həyat fəaliyyəti, nəbzinin vurması dəstəklənib, yaralarının tam sağalması isə zaman məsələsidir. Bu işi də Şuşada "təbiblik" edəcək inşaatçılar yerinə yetirir. Yəni Şuşanın intensiv terapiyası davam edir. Onların əl-ayağına dolaşıb işlərini ləngitməyə dəyməz.

Bir də… Bir də Şuşa işğal dövrü yaşamış bütün şəhərlər kimi öz qadın simasını hələ bərpa etməyib. Az qala bir qərinəlik işğalın, sayğısızlığın, qədirbilməzliyin yaralarının ilkin sağlama mərhələsində qadın zərifliyinə, qadın səliqəsinə hələ ehtiyac yoxdur. Tək-tük marketlərdə, apteklərdə nədir, hətta mehmanxanaların xidmət personalının arasında qadın işçi hələ gözə dəymir. Deyəsən, işğaldan sonrakı dövrün əsl ilk şuşalısı da hələ dünyaya gəlməyib. Amma yox, Şuşada bu yay dünyaya göz açanlar var.

…Hostelin eyvanında dayanıb şəhəri seyr edəndə qaranquşlar lap başımın üstündə öz nəğmələrini oxuyaraq cövlan edirdilər. Düzü, "Düyməcik" nağılından başqa heç vaxt bu ürkək quşların insana yaxın gəlmək cəhdinə şahid olmamışdım deyə təəccüblənəcəkdim ki… gözüm eyvanın yuxarı küncündəki qaranquş yuvasına sataşdı. Deməli, həyat davam edir.

***

Bəlkə də nə vaxtsa təxminən yüz il əvvəl görkəmli yazıçı-publisist İlya Erenburqun qələmindən çıxan "Parisi görməli və ölməli" ifadəsinin tarixçəsi barədə nəsə yazdım. Hələliksə təxminən yüz il arzuların son həddi kimi anlaşılan bu ifadəyə düzəlişim var: "Şuşanı görməli və ardını yaşamalı!...".

**Gülcahan Mirməmməd**

# “Bir ailənin əsri”

## Məşhur azərbaycanlı haqqında film çəkiləcək

Rusiya Dövlət Atom Gəmiqayırma Mərkəzinin baş direktoru və prezidenti, "Sevmaş" maşınqayırma zavodunun direktoru vəzifələrində çalışmış, elm və texnologiya sahəsində iki dəfə (2000, 2006) RF Dövlət mükafatı laureatı Davud Paşayev (1940–2010) haqqında film çəkiləcək.

Kinorejissor, Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) İdarə Heyətinin üzvü, Əməkdar incəsənət xadimi Ziya Şıxlinskinin lentə alacağı filmin ssenari müəllifləri rejissorun özü və yazıçı Toğrul Cuvarlıdır.

Qeyd edək ki, filmin “Bir ailənin əsri” adlı ssenarisi AKİ-nin A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondu ilə 2020-ci ildə birgə keçirilmiş “Rusiyanın görkəmli azərbaycanlıları” ssenari müsabiqəsində qalib olub.

Müsabiqənin məqsədi Rusiyada yaşayıb-yaratmış görkəmli azərbaycanlıların həyat yolunu işıqlandırmaqla yanaşı, gənc nəslə onların nailiyyətlərini çatdırmaq və sənədli kino sahəsində aktivliyi artırmaqdan ibarət idi.

# Kukla teatrının beynəlxalq əlaqələri genişlənir



Özbəkistanın Qaraqalpaq Dövlət Kukla Teatrının kollektivi 25-28 iyun tarixlərində ölkəmizdə səfərdədir.

Teatrın direktoru Usmanatdin Mambetaliyevin başçılıq etdiyi heyət iyunun 25-də Azərbaycan Dövlət Kukla Teatrında olub.

Görüşdə qarşılıqlı olaraq hər iki teatrın tarixi və fəaliyyəti haqqında məlumat verilib. Sonra iki sənət ocağı arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Sənədə qonaq teatrın direktoru Usmanatdin Mambetaliyev və Azərbaycan Dövlət Kukla Teatrının direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə imza atıblar.

Sənəddə qarşılıqlı qastrol səfərlərinin təşkili, ustad dərsləri, müştərək tamaşaların hazırlanması, habelə yaradıcı heyətin təcrübə mübadiləsi və digər məsələlər əksini tapıb. Bu xüsusda ilk olaraq Özbəkistanda azərbaycanlı rejissorun, Azərbaycanda isə özbək rejissorun quruluşunda milli dramaturgiya nümunələri əsasında tamaşaların hazırlanması barədə razılıq əldə edilib.

Qeyd edək ki, iyunun 27-də qaraqalpaqlı kuklaçıların təqdimatında Azərbaycan Dövlət Kukla Teatrında “Saray içindəki möcüzə” tamaşa-konserti nümayiş olunub.

# Ələkbər Tağıyevin 100 illiyinə həsr olunan musiqi axşamı

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında tanınmış bəstəkar Ələkbər Tağıyevin (1924–1981) mahnılarından ibarət konsert proqramı təqdim edilib. Musiqi axşamı bəstəkarın anadan olmasının 100 illiyi münasibətilə gerçəkləşib.



Konsertdə teatrın solistləri bəstəkarın populyar mahnılarından ibarət musiqi nömrələri ilə çıxış ediblər. Bir-birindən parlaq ifalar maraqla qarşılanıb. Solistləri teatrın instrumental ansamblı (bədii rəhbər Mirxalid Salayev) müşayiət edib.

Qeyd edək ki, Ələkbər Tağıyev Azərbaycan musiqi mədəniyyətinə “Azərbaycanım mənim”, “Şirin arzular”, “Sən gəlməz oldun”, “Dinə bilmədim”, “Bakı gecələri”, “Qonşu qız”, “Azərbaycan oğluyam”, “Qəşəngdir” kimi bir çox sevilən mahnılar bəxş edib. Sənətkarın “Sən gəlməz oldun”, “Arzu qızım”, “Sənə qurban”, “Sədaqətim var” kimi mahnıları xarici müğənnilər tərəfindən də ifa olunub.

# Bir Səfa söhbəti

## “Aktyor sənəti amansız peşədir, o, heç vaxt vəfalı olmur və səni hər cür sınayır”

Elə adamlar var ki... Nöqtələrin yerinə hər kəs nələrsə yaza, hisslərini sözlərə ifadə edə bilər. Amma mənim üçün o, ən əvvəl böyük şəxsiyyətdir. Sənətkarlıq məziyyətləri, istedad, peşəkarlıq və sair xüsusları ondan sonra gəlir. Həqiqət budur ki, insan şəxsiyyətə çevriləndə sənətkar da olur, şöhrətə də yetir.

Müsahibim məşhur teatr və kino aktyorumuz, Xalq artisti, ADMİU-nun Səhnə danışığı kafedrasının müdiri professor, Prezidentin fərdi təqaüdçüsü Məmmədsəfa Qasımovdur.

*– Məmmədsəfa müəllim, necəsiniz?*

– Çox sağ olun, yaxşı, min şükür.

*– Hiss olunur, son səfər sizin üçün maraqlı olub.*

– Bəli, çox gözəl oldu. Bu günlərdə Mədəniyyət Nazirliyinin xətti ilə Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günlərində Yuğ Dövlət Teatrı heyətində mən də iştirak etdim. Repertuarımızdakı “Mənəm... mən” tamaşası ilə çıxış etdik. Möhtəşəm, isti, sevgi dolu münasibətlər fonunda, özü də Orta Asiyanın ürəyi sayılan Özbəkistanda belə bir zəngin səfər təəssüratına görə əməyi olan hər kəsə təşəkkür edirəm. Məndə belə xoş təəssürat hələm-hələm yaranmır. Onu da deyim.

*– Həyat və sənət fəaliyyətiniz üç istiqamətə bölünür: teatr, kino və pedaqogika. Tərəziyə qoysaq, hansı ağır gələr?*

– (Gülür). Siz bölgü apardınız. Yəqin kənardan belə görünür. Amma mən, inanın ki, bu bölgünü heç vaxt etmirəm və hər birinə bütün canımla, ruhumla bağlı olmuşam. Təki onların hər birində məndən nəsə olsun. Amma mən aktyoram, aktyor sənəti ilə məşğulam və belə də qalacam. Teatrda da, kinoda da, siz dediyiniz üçüncü xətt olan pedaqogikada da mən yenə də aktyor sənətimlə məşğulam. İnanın, mən tələbə ilə işləyəndə də aktyor kimi işləyirəm. Elə hesab edin ki, öz üzərimdə işləyirəm, özümü ortaya qoyuram. Bu mənada tələbə ilə iş mənim üçün çox maraqlıdır. Xüsusən son illər. Çünki çalışdığım universitetdə təhsil sahəsində maraqlı addımlar atılır, fərqli layihələr icra olunur. Müşahidə etsəniz, simpoziumlar, festivallar, tərəfdaş ali təhsil ocaqları ilə birgə təşəbbüslər kimi əhəmiyyətli addımlar atılır. Sözsüz ki, bu da hər birimizə stimul verir.

*– Müsahibələrinizin birində “Teatrda öyrəndiklərimi kinoda xərclədim” demisiniz. Teatrı kino üçün məktəb də hesab edənlər də var. Sizcə, nə qədər haqlıdırlar?*

– Haqlıdırlar. Çünki teatr böyük mənada tamaşaçı ilə canlı ünsiyyət, var olma, mütəmadi olaraq bu halın qırılmaz şəkildə bağlanmasıdır. Özümlə bağlı deyə bilərəm ki, teatrda var olmaq, tamaşaçı ilə işləmək, ünsiyyətdə ola bilmək, tərəf-müqabilini hiss etmək mənə digər sahələrdə çox yaxından kömək edir.

*– Amma kinomuzda yaxşı aktyorlar vardı ki, 90-cı illərdə kinosuzluqdan teatra qayıtsalar da, o uğura çata bilmədilər. Eləcə də teatrdan kinoya gedənlərin heç də hamısı o iri plana, kameraya uyğunlaşa bilmədi. Bu tandemi necə yaratmaq olar?*

– Düşünürəm ki, kinoda müvəffəqiyyət qazanmış böyük aktyor haçansa teatra qayıdır və o, uğur əldə edə bilmirsə, deməzdim ki, istedadsızdır, teatra yaramır. Amma düşünürəm ki, zamanında teatra bağlansaydı, bu proses paralel getsəydi, siz deyən o uğursuzluq da olmazdı. Yəni kinonun şöhrətinə qaçmamalı, teatrda da var olmalı idi. Çünki teatr səni hər an prosesdə, formada saxlayır. Sənin canlılığını, ünsiyyətini qoruyub saxlayır. Bu mənada teatr mənim üçün çox maraqlıdır. Amma onu da etiraf edim ki, mən kinonu daha çox sevirəm. İstər aktyor, istərsə də tamaşaçı kimi.

*– Bəlkə ona görə ki, sizi də kino geniş tamaşaçı auditoriyasına tanıtdı?...*

– Hesab eləmirəm və söz ilə ifadə etmək də çətindir. Bu lap kiməsə sevginin ifadəsizliyinə bənzəyir.

*– Amma nə edək ki, ilk rolunuzu oynadığınız “Köpək” filminin kinematoqrafik taleyi uğursuz oldu.*

– Eh, o filmi çox gözlədim, çox, lap çox gözlədim və kəsdim atdım. Artıq özümə təlqin etdim ki, yoxdur, gözləmə. Kinonun ağır dönəmində kinoda olmaq başqa bir duyğu idi. Əslində, heç o zaman biz bunu dərindən hiss etmirdik də. Mən həmin dövrdə də, elə indi də heç o sual, təəssürat haqqında dərindən düşünmürəm. Bir anlıq 90-cı illərə, o ağır, fiziki və mənəvi savaşlardan çıxan ölkə insanlarının biri olan Məmmədsəfanın cavanlığına qayıdaq. Bir anlıq ora gedəndə də düşüncələr burulğanına düşürəm. Çünki bütöv şəkildə heç özümü ekranda təsəvvür belə eləmirdim. Vaxt olub, səsimdən belə çaşmışam ki, bu mənim səsimdir? Tələbə vaxtlarımızda belə sınaqları az da olsa edirdik. Amma kinoda, böyük ekranda təsvirimi heç görməmişdim. Heç sınaq çəkilişlərində də olmamışdım. Qulaq yaddaşımda səsim, gözümdə ekran təsvirim yox idi. Belə məqamda psixoloji cəhətdən çətin filmdə var ola bilmək, özü də böyük sənətkarlarla bir filmdə oynamaq mənim üçün unudulmaz idi. Həyəcan, məsuliyyət o film vaxtı çökdü qəlbimə. Kino ilə teatrda var olmaq arasında böyük fərqlər var və mən onu o filmdə böyük insan Tofiq Tağızadədən öyrəndim. Bu mənada operator Rafiq Quliyevin də, tərəf-müqabillərimin də böyük köməyi oldu. Amma elə onda da aktyorlarımız var idi ki, tərəf-müqabili qarşısında əyləşmir, özünü fərqli hiss etdirməyə çalışırdı.

*– Deyəsən, bu tendensiya indi də var: “sənin planın çəkilir, özün oyna”.*

– Bəli, var və qətiyyən qəbul edə bilmirəm. Bu da bir aktyor mədəniyyətidir və hesab edirəm ki, sən kimliyindən asılı olmayaraq, tərəf-müqabilinin qarşısında əyləşməli, səni çəkməsələr belə sən, ona kömək etməlisən. Bu bir yaradıcılıq tandemidir və bunu tərəf-müqabilindən əsirgəmək olmaz.

*– Yəqin buna görə istisnasız və təmənnasız gənc rejissorların, tələbələrin diplom filmlərində də çəkilirsiniz. Kino, kamera üçün darıxırsız, yoxsa o gənclərə təkan verməyə çalışırsınız?*

– Mədəniyyət və İncəsənət Universitetinin çox istedadlı tələbələri var. Kino, teatr, televiziya ixtisaslarında yetişən və onları yetişdirən peşəkar komanda da öz yerində. Düşünürəm ki, onların hər biri sabah kinomuzun, televiziyamızın, teatrımızın sütunları ola bilərlər. Bu gün o tələbələrin yanında olmaq, dəstək vermək hər bir peşəkar aktyorun borcu-



dur. Elə düşüncəyə malik gənclərimiz var ki, qürur duyur insan. Bir-bir ad çəkmək istəmirəm, amma əksəriyyətinin diplom işlərində sevə-sevə çəkildim. Həmin məqamlarda bir neçə məni incidən nüansı da eşitdim. Sən demə, bir neçə aktyorumuz, hansıların ki fəxri adları, təminatları belə var, tələbələrdən o qısametrajlı filmlərində çəkilmək üçün fantastik məbləğlərdə qonorarlar istəyiblər. Hətta alanlar da var. Düşünürəm ki, tələbədən qonorar almaq olmaz. Əksinə, bacardıqca onlara kömək eləmək lazımdır. Bilirsiniz, pul bu gün var, sabah yoxdur. Amma o məbləğə görə tələbəyə kömək etməməyi heç bir həmkarıma yaraşdırmıram. Düşünürəm ki, hər birimiz tələbələrimizin arxasında dayanmalı, onlara dəstək olmalıyıq. Onlar buna layiqdirlər.

*– Kino fəaliyyətinizin 30 ili tamam olur. Bu müddətdə kino Məmmədsəfaya nə verdi?*

– Belə deyim, mən kinoya heç nə verə bilməmişəm. Heç nə! Çünki oynaya biləcəyim rollar hələ qarşıdadır. O da qismət olsa. İndi durum deyim ki, kinoda nə isə eləmişəm, yox. Qəribədir, heç can da atmamışam ki, onu yox, bunu oynamaq istəyirəm. Soruşsanız ki, hansı rolu, nəyi oynamaq istəyirsiniz, cavabım olmayacaq. Oynadığım rollar da hansısa bir formadasa məni tapıb, oynamışam. Amma duyğularım, varlığım, o daxili gücüm mənə deyir ki, görəcəyim işlər, əsl rollarım hələ qabaqdadır.

*– Sənətdə şans anlayışına necə, inanırsınız?*

– Bir şeyi bilirəm ki, teatr, kino bir bəxt, tale, qismətdir. Məsələn, Allah aktyora lazım olan bütün səhnə, sənət imkanlarını verə bilər, amma ona bəxt verməyəcəksə, nə olacaq?! Mənim üçün aktyor sənəti başdan-ayağa şans sənətidir.

*– Bəs istedad, təcrübə, zəhmət...*

– Onda sual yaranır: Allah sənə hər şey verir, bəxtdən başqa?

*– Belə çıxır ki, Məmmədsəfa müəllimin sənətdə bəxti gətirib? Axı, belə deyil. Siz uzun və əzablı sənət yolu keçmisiniz.*

– Əlbəttə, əzabsız, zəhmətsiz də heç nə olmur. Amma o qədər istedadlı və zəhmətkeş, şanssız aktyorlarımız olub ki… Bu mənada birmənalı olaraq düşünürəm ki, aktyor sənəti amansız peşədir. O, heç vaxt vəfalı olmur və səni hər cür sınayır.

*– Bu kontekstdə yanaşanda özünüzü bəxti gətirmiş hesab edirsiniz?*

– Adi aktyorlardanam və görə biləcəyim işlər hələ qabaqdadır. O da tale, bəxt, ömür qismət edib, vəfa qılsa…

*– Kino obrazlarınız maraqlı, fərqli olub...*

– Düşünürəm ki, o da aktyorun bir xoşbəxtliyidir ki, müxtəlif janr və formalarda özünü yoxlaya bilsin. Amma sən saydığını say, gör rejissor nə sayır. Komediyada da, dramda da, faciədə də oynaya bilərəm. Çünki onların hər birində özümü görürəm, hiss edirəm. Deyim ki, mən gözəl bir komediyada oynamaq istərdim. Qismət olsa.

*– Amma ən çox Qarabağ mövzusunda filmlərdə uğur qazandınız. Tamaşaçı sizi, belə demək mümkünsə, məğlub dövrdə çəkilən “Dolu”da (2012) Komandir, Zəfərdən sonra çəkilən “Köhnə çamadanlar”da (2021) Şəhid atası kimi gördü.*

– Hər iki film mənim üçün çox doğmadır. Çünki sevdiyim rejissorlarla maraqlı bir çəkiliş dövrü keçmişik və zövqlə oynamışam. Sevinirəm ki, hər iki iş mənim kino taleyimə toxuna, ona təsir edə bildi.

*– Kinodan fərqli olaraq, teatr aktyor üçün özünüifadə mənasında hüdudsuz məkandır, yəqin...*

– Bəli. Tamaşada nəyisə düzəltmək mümkündür. Bu oyunda nə isə doğru alınmırsa, növbəti tamaşada bunu mütləq həll edirsən. Bu mənada kinonun məsuliyyəti daha böyükdür. Peşmançılıq hissinin yaranmaması, “kaş belə edərdim”in olmaması üçün. Çünki bir dəfə çəkilir və bitir. Teatrda isə bunu həll eləmək olur.

*– Hər iki halda aktyor sənəti asılı sənətdir və bəzən sənin oyununla rejissorun istəkləri üst-üstə düşmür.*

– Mən özümü heç kimdən asılı hesab eləmirəm. Öz işimi görürəm, öhdəmə düşən vəzifəmi icra edirəm. Üstəlik, mənim üçün böyük-kiçik, xətir-hörmət, mənəvi-əxlaqi dəyərlər daha vacibdir. Həyatda da, sənətdə də əsas meyar budur. Amma bir məqam da var, mən sevmədiyim insanla nə teatrda, nə kinoda tərəf-müqabili olmaram. Öz prinsiplərim var və yəqin ki, məni tanıyanlar daim bunu nəzərə alırlar.

*– Sənətdə dostlarınız çoxdur, yoxsa həyatda?*

– Həyatda daha çoxdur. Bilmirəm, bu nə ilə bağlıdır. Heç vaxt kiminləsə öcəşməmişəm, rəqabətə girməmişəm, mizan-tərəzini qırmamışam. Öz işim ilə məşğul olmuşam. Zatən dərindən dərk edəndə aktyor sənəti dəhşətli dərəcədə ağır, çətin sənətdir. Arada mənə elə gəlir ki, deyəsən, heç yerimdə deyiləm, bu sənəti düz seçməmişəm. Söhbət təkcə peşədən yox, münasibətlər, hansısa bir məsələdə özünü tapa bilməkdən gedir. Bəzən düşünürsən ki, orada olmamalıydımsa, niyə gedib çıxdım? Anam həmişə deyərdi ki, bu peşə sənlik deyil. İndi də bu fikirdədir. Hərdən düşünürəm ki, gərək zamanında ona qulaq asardım.

*– Nədir bu qənaətin səbəbi?*

– Mən bilmirdim bu peşə bu qədər məsuliyyətli, bu qədər çətindir. Bilməzdim ki, onun alternativi yoxdur. Bu çətinlikləri anlasaydım, bəlkə də o yaşımda qorxar və bu sənətə gəlməzdim.

*– Lap Yuğ poetikasına uyğun danışırsınız. Məkan, ruh, qutsal hisslər və var olmaq... Niyə məhz Yuğ və Vaqif İbrahimoğlu? Niyə bir tələbə məhz bu üslubu, çətin, vədsiz yolu seçsin?*

– Bu da bir təsadüfdür. Günlərin bir günü müəllimim İsrafil İsrafilov çağırdı və “Tutursunuz Vaqif müəllimin ətəyindən, özü də buraxmırsınız. Sizi istədiyiniz bütün məqamlarla müəllim özü aparıb çatdıracaq” dedi. İlk dəfə Vaqif müəllim bir tamaşamıza baxdı və oradan bizə məşqlərinə qatılmaqla bağlı təlimat verdi. O zamandan başladı təmasımız. Onu da deyim ki, uzun müddət müəllimin dediklərini edə bilmirdim. Anlayırdım, amma bu az idi. Başa düşdünsə, göstərməlisən axı. Hətta bir gün gəlib dedim ki, “Vaqif müəllim, sabahdan məşqə gəlməyəcəm”. Niyəsini xəbər alanda da edə bilmədiyimi bildirdim. Cavabı “qələt edirsən” oldu və o gündən bağlandıq, müəllimlə qaldıq. Və nə yaxşı ki qaldıq, qaldım.

*– Bu mənada Yuğ teatrı sizin üçün nədir?*

– O zamandan məndə formalaşıb qalan dəyərlərdir. Vaqif müəllim, həqiqətən, böyük insan, sənə dəstək ola bilən varlıq idi. Hər anımızda yanımızda olub. Bunu daim hiss etmişik. Rejissordan əvvəl o, qardaş, ata idi. Onda Yuğ da başqa, böyük bir kollektiv idi. Amma bu da bir dövr, zaman idi.

*– Aktyor kimi özünüifadə qəlibsizliyi mənasında da soruşuram...*

– Bu teatr mənim üçün teatrdan daha çox bir kino estetikasıdır. Yeganə məkandır ki, tamaşaçı ilə üz-üzə, göz-gözəsən. Qaçmaq mümkün deyil. Tamaşaçının gözündə iri plandasan. Bu teatr elə bil ki, kinoya bir qapı idi mənim üçün. Bu gün də belədir və onun teatr variantını, estetikasını özüm üçün müəyyənləşdirməmişəm. Bəlkə də bu məkanın balaca olmasından, tamaşaçı ilə yaxın ünsiyyətindən irəli gəlir. Yəqin tale, qismət də belə gətirib ki, bizə belə kiçik, dar məkanlar nəsib olub. Heç vaxt iri, akademik teatrların binaları kimi binalarımız, tamaşaçı ilə o teatrlardakı kimi məsafəmiz olmayıb. Bu mənada Yuğ mənim üçün digər teatrlardan köklü şəkildə fərqlənib.

*– Özünüzü böyük səhnədə təsəvvür etmirsiniz?*

– Mən hər hansı səhnədə oynaya bilərəm və oynamışam da. Tamaşaçı ilə üz-üzə oturmaq problemim də yoxdur. Amma çox istərdim ki, bizim də rahat, işləmək üçün əlverişli səhnəmiz, zalımız olsun. İnanın, arada elə fiziki əzab çəkirəm ki, az qalıram tamaşanı yarımçıq qoyub gedim. Sözsüz ki, Mədəniyyət Nazirliyi, dövlətimiz teatrları diqqət mərkəzində saxlayır və mümkün şəraiti yaradır. Biz artıq 8 ildir ki, Dövlət Kukla Teatrında məskunlaşmışıq. Bu teatrdan narahatlığımız, narazılığımız yoxdur. Amma çətindir. İnanıram ki, yaxın zamanda bu məsələ həll ediləcək və biz öz üslubumuza, poetikamıza, janrımıza uyğun tamaşa yaradıcılığımızı özümüzə məxsus məkanımızda davam etdirəcək və daha yaxşı tamaşalar hazırlayacağıq. Vaqif müəllimin təkcə bizə yox, xalqımıza mirası olan bu teatr, dövlətin teatrı özünün daimi məkanını tapacaq. Buna çox inanıram.

**Söhbətləşdi: Həmidə Nizamiqızı**

№47-48 (2113)
28 iyun 2024
www.medeniyyet.az

# Xalqa xidməti ömrünün qayəsi sanan maarifçi



Azərbaycan maarifçiləri XIX əsrin ikinci yarısında cəmiyyətdəki savadsızlıq, gerilik və ziddiyyətlərin aradan qaldırılması üçün böyük səy göstərirlər. Onlar bu vəziyyətdən çıxış yolunu məhz xalqın maariflənməsində görürdülər. Həmin dövrdə xalqımızın öndə gedən ziyalılarından biri də Həsən bəy Zərdabi idi. Onun təsis etdiyi "Əkinçi" qəzeti ilə cəmiyyətimizdə maarifçilik meyilləri geniş vüsət aldı və milli özünüdərkin yeni mərhələsi başlandı. Görkəmli maarif və mətbuat xadimini anadan olmasının 182-ci ildönümü münasibətilə yada salırıq.

Həsən bəy Səlim bəy oğlu Məlikov 28 iyun 1842-ci ildə Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab rayonu) maarifpərvər ailədə anadan olub. İlk təhsilini kənddəki mədrəsədə alır. Ərəb və fars dillərini öyrənir. Sonra Şamaxı şəhərində yeni açılan rus məktəbində təhsilini davam etdirir. Məktəbi bitirmək üçün imtahan verən zaman Qafqaz Təhsil Komissiyasının müdiri baron Nikolayın diqqətini çəkir. Baron onun dövlət təqaüdü ilə Tiflisə oxumağa göndərilməsini təklif edir. Beləliklə, gənc Zərdabi istedadlı bir gənc kimi dövlət hesabına I Tiflis gimnaziyasına qəbul olunur. 1860-cı ildə gimnaziyadan məzun olan Həsən bəy Moskva Universiteti Fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq şöbəsində təhsil almağa başlayır.

1865-ci ildə Moskva Universitetini əla qiymətlərlə bitirdiyinə və nümunəvi tələbə olduğuna görə Elmi şuranın qərarı ilə ona təbiət elmləri namizədi alimlik dərəcəsi verilir. Hətta ona kafedrada qalıb işləmək təklif olunur. Ancaq onun məqsədi əldə etdiyi savad və təcrübəni doğma Vətənində təhsilin, elmin, mədəniyyətin inkişafına sərf etmək idi. Beləliklə, o, Azərbaycana qayıdır. Bir müddət Bakıda müxtəlif işlərdə çalışır. Qubada barışıq məhkəməsinin katibi olur. Sonra Şamaxıda şəxsi vəkilliklə məşğul olur. 1869-cu ildə Bakı real gimnaziyasında təbiət tarixi fənnini tədris edir. 1872-ci ildən Azərbaycanda ilk "Xeyriyyə cəmiyyəti"nin əsasını qoyur. 1873-cü ilin 10 mart tarixində Əsgər ağa Gorani ilə birlikdə gimnaziyada M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyasının tamaşasını təşkil edir. Bununla da Azərbaycan peşəkar milli teatrının əsası qoyulur.

Araşdırmalarda qeyd edilir ki, təbiətşünas alim kimi tanınan H.Zərdabi öz ixtisası ilə əlaqədar dövri mətbuatda maraqlı, maarifləndirici məqalələr dərc etdirir. Müəllifin "Torpaq, su və hava", "Sümük, ət, beyin", "İnsan bədəninin florası", "Orqanizmin yoluxucu mikroblara qarşı mübarizəsi", "Sərxoşluğa qarşı peyvənd" və s. məqalələri maarifçi mühitdə maraqla qarşılanıb.

Həmin dövrdə ana dilində mətbu orqanın olmaması Həsən bəyi çox düşündürürdü. O, Azərbaycan dilində qəzet nəşr etmək üçün hökumətə müraciət edir. Bununla əlaqədar xeyli zəhmətə qatlaşır. Nəhayət, 22 iyul 1875-ci ildə Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olur. 29 sentyabr 1877-ci ilədək "Əkinçi" qəzeti ayda iki dəfə 300-400 tirajla nəşr olunub. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. Maarifçi və demokratik ideyalar carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafına da öz töhfəsini verir. Elə buna görə də belə bir tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox davam gətirə bilmir. Çünki bu qəzet kənd camaatının ağır güzəranını aydın şəkildə oxucuya çatdırırdı... Nəhayət, "Əkinçi" qəzeti bağlanır. Ancaq ilk anadilli qəzetimiz özündən sonra ənənələri bu gün də davam edən işıqlı bir mətbuat yolu açmış olur.

H.Zərdabi Bakı realnı məktəbində işə düzəlir. Ancaq gərgin və çətin bir şəraitdə işləyir. Çar məmurları onu davamlı təqib edir. Evində belə rahat buraxmırlar. Ümumiyyətlə, onu Bakıdan uzaqlaşdırmağa çalışırlar. 1878-ci ildə Zərdabidən qəti surətdə tələb olunur ki, Rusiyanın Yekaterinodar (indiki Krasnodar şəhəri) gimnaziyasına tərbiyəçi getsin, ya da istefaya çıxsın. Zərdabi vəziyyəti nəzərə alaraq, müdiriyyətə məktəbdən azad edilməsi barədə ərizə ilə müraciət edir.

O, 1880-ci ildə doğma Zərdab kəndinə dönür. 16 il kənddə yaşamalı olur. Mühafizəkarların fitnə-fəsad və acı tənələrinə mərdliklə sinə gərir. Eyni zamanda maarifçilik fəaliyyətini də davam etdirir. Dövri mətbuat səhifələrində tez-tez çıxışlar edir. Böyük bir fasilədən sonra – 1896-cı ildə uşaqlarının təhsili ilə bağlı Bakıya dönür. "Kaspi" qəzetində işə düzəlir. Bir müddət sonra Bakı Şəhər Dumasına deputat seçilir. Maarif komissiyasının üzvü olur. O, dumanın iclaslarında şəhərin uzaq məhəllələrində məktəb və xəstəxana açılması məsələsini qaldırır. Çox vaxt da məsələlərin müsbət həllinə nail olur. Həmin dövrdə Azərbaycanda məktəblərin sayı xeyli artır. Həsən bəy məktəblərdə ana dilində tədrisə geniş yer verilməsi üçün də səy göstərir. Eyni zamanda Bakıdakı xeyriyyə cəmiyyətlərinin işində də yaxından iştirak edir.

Milli mesenat Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi və H.Zərdabinin məsləhəti ilə 1901-ci ildə Bakıda Aleksandra Fyodorovna adına rus-müsəlman qadın məktəbi ("Tağıyev qızlar məktəbi") açılır. Bununla da böyük maarifçinin daim arzuladığı və illərlə uğrunda mübarizə apardığı azərbaycanlı qızlar üçün təhsil müəssisəsi açmaq ideyası reallaşır. O, 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilən birinci qurultayının işində yaxından iştirak edir. Təşəbbüsü ilə Bakıda müəllimlərin II qurultayı da çağırılır.

H.Zərdabi həm də xalq yaradıcılığının bilicisi kimi tanınıb. Xalqın mənəvi inkişafında və dünyagörüşünün formalaşmasında aşıq sənətinin rolunu yüksək dəyərləndirib. Aşıqların repertuarında tarixi mahnıların olmasını vacib hesab edib. El nəğmələrinin insanın ruh və əxlaqına təsirini dərk edən ziyalı 1901-ci ildə "Türk nəğmələri məcmuəsi"ni nəşr etdirir. Uşaqları elmə, təhsilə və tərəqqiyə həvəsləndirmək məqsədilə xalq mahnılarını toplayır. Bu mahnılar 1901, 1903 və 1909-cu illərdə çap olunur. Görkəmli maarifçi mahnılara hələ "Əkinçi" qəzetinin nəşri zamanında yüksək dəyər verirdi: "Əkinçi" qəzeti çıxanda o vaxtın şairlərindən təvəqqe etdim ki, bülbülü və gülü tərif, bir-birlərini həcv etməkdən əl çəkin. Elm təhsil etməyin nəflərindən və biz müsəlmanlara olan zülmlər barəsində şeirlər yazın. Onları bizim aşıqlara xoş sövt ilə oxumağı öyrətsinlər ki, aşıqlar onları toylarda oxuyub əhalini oyatmağa səbəb olsunlar".

Azərbaycan maarifçilik hərəkatının öncüllərindən olan Həsən bəy Zərdabi 28 noyabr 1907-ci ildə Bakıda vəfat edib. Bakıda Bibiheybət qəbiristanlığında dəfn olunub. 1948-ci ildə Bakıda Fəxri xiyaban yaradılarkən böyük maarifçinin qəbri həmin xiyabana köçürülüb.

**Savalan Fərəcov**

# Azərbaycan Bəstəkarlar İttifaqının 90 yaşı tamam olur



XX əsrin əvvəlində Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir səhifə açıldı. Bu, Avropa anlamlı bəstəkar yaradıcılığının meydana gəlməsi ilə bağlı idi. Azərbaycanda çoxsaylı peşələrin sırasına biri də əlavə olundu: bəstəkarlıq. Üzeyir Hacıbəylinin 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə intibaha başlayan musiqimiz XX əsrin ortalarına doğru opera, balet, operetta, simfoniya, konsert kimi irihəcmli musiqi janrlarını, habelə bir sıra xırda musiqi formalarını da əks etmiş oldu.

Azərbaycan musiqisinin XX əsrin birinci yarısında kifayət qədər qısa zaman kəsiyində nail olduğu inkişaf, hər şeydən öncə, müsəlman Şərqində ilk dəfə respublikamızda təşəkkül tapan üçpilləli təhsil sistemi ilə bağlı idi: ibtidai musiqi məktəbləri, musiqi texnikumu və ali təhsil ocağı kimi Dövlət Konservatoriyası.

Milli musiqiçi kadrların, o cümlədən bəstəkarların hazırlanması üçün Moskva və Leninqraddan Bakıya yüksəkixtisaslı professor-müəllim heyəti dəvət olunmuşdu. 1921-ci ildə Bakıda təsis edilmiş Azərbaycan Dövlət Konservatoriyasında (ADK) Ü.Hacıbəyli ilə yanaşı, bəstəkar nəzəriyyəçilər – Z.M.Rudolf, N.S.Çumakov, Z.P.Yablonko, daha sonralar Q.Qarayev və C.Hacıyevlə bahəm B.İ.Zeydman kimi mütəxəssislər bəstəkarlıq ixtisasını tədris etmişlər.

Musiqi sahəsində təşkilatlanmanın başlanğıcı kimi isə 1919-cu ildə Bakıda Orkestr Musiqiçiləri İttifaqının yaradılmasını qeyd etmək olar. 1920-ci ildə musiqiçilərin daha bir ictimai təşkilatı "Simfonik musiqi cəmiyyəti" mədəni həyata qoşulur.

1920-ci illərin sonlarında Üzeyir bəyin rəhbərliyi ilə ADK-da "Türk musiqisinin tədqiqi və inkişafı üzrə Azərbaycan elmi cəmiyyətinin yaradılması" layihəsi hazırlanır.

Bu dövrdə yaradılmış "Azdramkom" adlı təşkilat – Azərbaycan dramaturqları və kompozitorları cəmiyyəti isə Azərbaycan Bəstəkarlar İttifaqının bilavasitə sələfi sayıla bilər. Bu təşkilat, adından da göründüyü kimi, öz sıralarında teatrla bağlı iki peşə sahiblərini – dramaturqları və bəstəkarları birləşdirib. Bəstəkarlar İttifaqının məhz bu mürəkkəb və ziddiyyətli dövrdə yaradılması, problemləri qismən də olsa, həll etməli idi.

1933-cü ilin iyun ayında Bəstəkarlar İttifaqının 15 nəfərdən ibarət Təşkilat bürosu yaradılır. Bu qurumun artıq müəyyən səlahiyyətləri vardı: bəstəkarlara kateqoriyalar üzrə qonorarların verilməsini həll edir, vaxtaşırı iclas və yığıncaqlar keçirirdi. Təşkilat bürosuna sədrlik rus Sergey Paniyevə həvalə olunmuşdu. Lakin onun bəstəkar kimi işi məqbul sayılmadı. Təşkilat bürosu bir il sonra, 1934-cü il iyunun 17-də keçirilmiş iclasında Bəstəkarlar İttifaqının təsis yığıncağının çağırılmasına qərar verir.

1934-cü il iyun ayının 30-da 17 nəfərin – Ə.Bədəlbəyli, Z.Hacıbəyov, Niyazi, A.Refatov və başqalarının iştirakı ilə ümumi yığıncaq keçirilir. Məhz bu gün musiqi tariximizdə Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) yaranma günü sayılır.

İttifaqın ilk yığıncağında təşkilatın sədri vəzifəsinə milliyətcə Krım tatarı olan Asan Mahmudoviç Refatov seçilir. 6 nəfərdən ibarət idarə heyətində müxtəlif millətlərin nümayəndələri – A.Refatov, G.Burşteyn, V.Çebanenko və başqaları ilə yanaşı, bu tərkibdə yeganə azərbaycanlı olan, musiqi tariximizdə layiqli yer tutmuş Əfrasiyab Bədəlbəyli də vardı. Təftiş komissiyasının sədri vəzifəsi isə gələcəyin böyük dirijoru və bəstəkarı 22 yaşlı gənc Niyaziyə həvalə olunmuşdu.

İlk nizamnamədə əsas vəzifə kimi bəstəkar və musiqişünasları bir araya gətirmək nəzərdə tutulurdu. Həmçinin ittifaqa ayrıca bina və gündəlik iş üçün pianino verilməsi də qarşıya qoyulmuşdu. Təxminən 20 ilə yaxın qurumun ayrıca binası olmasa da, o fəaliyyətini ümumən uğurla davam etdirib. Artıq 1934-cü il noyabrın 4-də ABİ radio dinləyicilərinə ilk hesabat konsertini təqdim etmişdi.

Üzeyir bəy ilk illərdə ABİ-nin rəhbərliyində təmsil olunmasa da, onun yaranması və fəaliyyətində bilavasitə iştirak və prosesə faktiki rəhbərlik edib. O, həmçinin 1934-cü ildə ABİ-də yaradılan Tənqid və musiqişünaslıq bölməsinin sədri idi. 1937-ci ildə Ü.Hacıbəyli ittifaqın sədri seçilir və ömrünün sonunadək (1948) ona rəhbərlik edir.

Bu gün Bəstəkarlar İttifaqının fəaliyyətində Üzeyir Hacıbəylinin ənənələri yaşadılır. 2018-ci ildə ABİ tərəfindən "Üzeyir Hacıbəyli" fəxri medalı təsis edilib. Ü.Hacıbəyli irsinin yaşadılmasına, Azərbaycan musiqisinin dünyaya tanıdılmasına xidmət edən ən böyük layihələrdən biri də 2009-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə əsası qoyulan və hər il Bəstəkarlar İttifaqının da yaxından iştirakı ilə gerçəkləşən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalıdır...

**Bəyim Dadaşova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kiçik elmi işçisi**

# Bakının qəribə qəsəbə adları

## Şəhər linqvomədəni fenomen kimi



Bu gün şəhərlər inkişaf tarixi, urbanizasiya məsələləri, digər cəhətləri ilə yanaşı, həm də dilçilik, toponimiya nöqteyi-nəzərindən, linqvomədəni fenomen kimi nəzərdən keçirilir. Xüsusilə böyük şəhərlərdə müxtəlif mədəniyyətlərin bir arada olması özünəməxsus semiotika doğurur ki, bu da küçə, meydan, məhəllə və s. adlarında öz ifadəsini tapır. Bu adlar yalnız toponimiya, dil hadisəsi deyil, həm də sosial-mədəni fenomendir, şəhər sakinlərinin "yaddaş saxlancı"dır. Bəzən tarixi şəxsiyyətlərə, tarixi hadisələrə, məhəlli-ərazi xüsusiyyətərinə, sakinlərin yaşayış tərzi, peşə xüsusiyyətlərinə bağlı olaraq ortaya çıxan bu adlar ayrı-ayrılıqda maraq kəsb edir.

Bakı şəhəri də bu mənada təkrarsızlığı ilə diqqət çəkir. Liman şəhəri olması, Böyük İpək Yolunun qovşağında yerləşməsi onu ta qədimdən multikultural bir məkan kimi formalaşdırıb, küçə, meydan, məhəllə adlarında özünü göstərib. Bundan əlavə, şəhərin landşaftı da yer adlarının seçilməsində öz rolunu oynamaya bilməzdi. XIX əsrin sonlarında Bakı tarixi məkanından – İçərişəhərdən xeyli kənara çıxaraq müxtəlif məhəllələrlə genişlənmişdi: Qara şəhər, Şamaxinka, Kərpicxana, Qanlı təpə, Cəmbərəkənd ("qövsvarı kənd" mənasında), Alatava ("qırmızı dağ" mənasında), Badamdar ("badam yetişən yer"), Zavağzal, Xrebtovı, Məhəmmədli məhəlləsi, Palçıqlı məhəllə, Dağlı məhəlləsi, Zərgərpalan, Quba meydanı və s.

### Paytaxtın sənaye toponimləri

Bu yazının əsas mətləbi isə Bakının "Ərəblinka", "Xutor", "Çermet", "NZS", "UPD" və s. kimi qəsəbə, məhəllə adlarının mənşəyinə müəyyən dərəcədə aydınlıq gətirməkdir. Məsələ ilə bağlı müraciət etdiyimiz AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu Toponimika şöbəsinin müdiri Elçin İsmayılov bu xüsusda fikir və mülahizələrini bizimlə bölüşdü.

Alim deyir ki, abreviatura olan qəsəbə-məhəllə adları rus dilində söz birləşmələri olaraq formalaşıb.

Məsələn, "NZS" rus dilində "нефтезаправочная станция" (neft doldurma stansiyası) söz birləşməsindən meydana gəlib. Həmin ərazi XIX əsrin 1930-40-cı illərində rayonlara neft aparan qatarların neftlə təmin edildiyi məntəqə olub. NZS hazırda Xətai rayonunun Keşlə qəsəbəsinin bir hissəsidir.



"UPD" abreviaturası bu məkanda yerləşən "Mədən yolları idarəsi" (Управление промысловых дорог) adından götürülüb. O vaxt "NZS" "UPD"-nin tabeliyində olan təşkilat idi.

"Çermet" ("Чёрный металл") qara metal emalı ilə məşğul olan sənaye obyektinin, zavodun adı ilə bağlıdır. Zavod bu gün də fəaliyyət göstərir.

"Ərəblinka" Qaraçuxurda (Suraxanı rayonu), təpəlikdə, çox gözəl evlərdən ibarət məhəllənin adıdır.

Elçin İsmayılov: "Ümumiyyətlə, Azərbaycanda ərəblərlə bağlı yaşayış məntəqələri, məkan adları az deyil. Bu təsadüfi deyil. Abbasqulu ağa Bakıxanovun "Gülüstani-irəm" əsərində qeyd etdiyi kimi, Azərbaycanda 300-ə yaxın ərəbmənşəli yaşayış məntəqəsi var".

"Xutor" qəsəbəsi (Binəqədi rayonu) vaxtilə fəhlələri məskunlasdırmaqdan ötrü hazır taxta evlərdən salınmış yaşayış sahəsi olub. Bu taxta evlər Ukrayna kəndləri, yəni xutorlar üslubunda olduğu üçün ərazi də "Xutor" adlanıb.

Yaxınlıqdakı "Vorovski" deyilən qəsəbə-məhəllə isə Sovet İttifaqının ilk diplomatlarından olmuş, milliyətcə polyak olan kommunist Vatslav Vorovskinin adı ilə paytaxtımızda əbədiləşdirilmişdi. Hazırda "Xutor" və "Vorovski" Rəsulzadə qəsəbəsinin ərazisidir.



Yeri gəlmişkən, indi Rəsulzadə qəsəbəsi adlanan yer vaxtilə adsız idi, camaat arasında sadəcə, "Поселка" ("поселок" – "qəsəbə") adı ilə tanınırdı, ordakı evləri isə alman əsirləri tikmişdilər. Hazırda o evlərdən çox az sayda qalıb. Sovet dövründə indiki Binəqədi rayonu Kirov rayonu adlanırdı, qəsəbə də "поселок Кирова" kimi tanınırdı.

Toponimşünas Elçin İsmayılov deyir ki, məhəllələrin, küçələrin əvvəlki rəsmi və ya qeyri-rəsmi adlarının yaddaşlarda qalması təbiidir – yaddaşı yeniləmək dərhal baş verə bilməz. Həm də tarixi yaddaş baxımından bunun müəyyən mənası var. Amma poçt, taksi xidmətlərində bu bəzən çətinlik törədir. Məsələn, Nizami küçəsi uzun illərdi ki, Torqovı kimi tanınmaqdadır. Əslində, Nizaminin adını əbədiləşdirməyə başqa, daha böyük küçələr tapmaq çətin deyil. O küçə isə Ticarət küçəsi adlansaydı daha doğru olardı, çünki müasir dövrümüzdə də ora ticarət məkanıdır.

Eləcə də sovet dövründən qalan qəsəbə adları hələ də şəhər sakinləri arasında istifadə olunur. Məsələn, Montin (Nərimanov rayonunda), yaxud əvvəllər Serebrovski, indiki Qaraçuxur qəsəbələrinin adları inqilabçıların adları ilə bağlıdır.

Elçin İsmayılov: "Amma Stepan Razinin adının vaxtilə o boyda qəsəbəyə verilməsi yolverilməz olduğu kimi, müstəqillik qazanandan sonra həmin qəsəbənin rəsmi adının Bakıxanov olmasına baxmayaraq, indiyədək Razin qəsəbəsi anlayışının beyinlərdə, dillərdə qalması da qəbuledilməzdir. Stepan Razin quldur olub. Rusiyanın özündə lənətlənmiş şəxsdir. Bakıya hücum edib və Bakıətrafı kəndlərdə vəhşiliklər törədib. Bakının qəsəbələrindən birinin belə bir adamın adı ilə adlandırılmasini anlamaq mümkün deyil...".

Elçin müəllim bizimlə söhbətində onu da vurğuladı ki, yaddaşlarda yenilənmə baş verməsi üçün müəyyən zaman keçməlidir. Tarixi, sosial zəmini olmayan yer adları düşüncələrdən, şifahi nitqdən silinməsi qərarla, sərəncamla baş verən deyil.

Toponimlərin motivasiyası şəhər məkanının mətnini təyin edir. Bu özlüyündə mürəkkəb bir prosesdir. Eyni zamanda bu amillər sayəsində şəhər məkan və mətn olaraq özünü təsdiq edir...

**Samirə Behbudqızı**

# Həyatın rəngləri zamanın ötüb-keçən ahəngində...

Azərbaycan Milli İncəsənət Muzeyində "1920–1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" adlı yeni ekspozisiyasının açılışı (5 iyun) barədə xəbər vermişdik. Tarixi xronikalı sərgilər həm də keçmişə, müəlliflərin yaşadığı, eyni zamanda tamaşaçıya ötürülən hiss və duyğulara bir yolçuluqdur. Elə bu düşüncələrlə Milli İncəsənət Muzeyinə çatıram. Mühafizə xidməti səmimi qarşılayıb muzeyin mətbuat xidmətindən Günay Əsgərovaya xəbər edir. Qısa hal-əhvaldan sonra muzeyin bələdçisi Firuzə Ağayevanın müşayiəti ilə yeni ekspozisiyanı gəzirik.



### Ötən əsrdəki yeni quruluşun ilk illəri

Burada hər bir tablo tarixin səhifəsidir, ötən illərin, keçən dövranın təfərrüatını açır bizə. Rəssamlıq sənəti ustadlarının əl izləri, sevgisi, sənət dünyası boylanır tablolardan. Bu əsərlərin divardan asılmış cansız bir əşya olduğuna baxmayın, onların da dili var. Rəng dili, üslub dili, dövr dili. 1920–1980-ci illərdə Azərbaycan rəngkarlığı və qrafika sənətlərinin keçdiyi inkişaf yolu, görkəmli sənətkarların özünəməxsus yaradıcılıq dünyası ilə dolğun şəkildə tanış ola bilirsən bu ekspozisiyada.



157 ədəd rəngkarlıq, qrafika, heykəltaraşlıq və keramika nümunəsi... Bu, 157 düşüncə, bir o qədər də sənətkar baxışı deməkdir.

İlk zala daxil olanda 1920-ci ildə Azərbaycanda baş verən siyasi hadisələr, tarixi məqamların rəssamlarımızın yaradıcılığında da öz əksini tapdığını görürük. Burada yeni quruluşun – "fəhlə-kəndli hökuməti"nin guya diqqətdə saxladığı, qəhrəman imici geyindirdiyi fəhlələrin, kolxozçuların obrazları görünür.

Ələkbər Rzaquliyevin əsərləri önündə dayanırıq. Rəssam sovet ideologiyasını qəbul etmədiyinə görə ömrünün 30 ilə yaxınını sürgündə keçirib. Onun kətan üzərində yağlı boya ilə iki əsəri diqqəti çəkir. Bu əsərlərdə miniatür sənəti elementləri aydınca görünür. Çoxfiqurlu, kompozisiyalı "Güləşçilər" əsəri də maraq doğurur. Bu məqamda rəssamla bağlı vacib bir məqamı xatırlayıram: "Həyatın ağır zərbələrini alan Ələkbər Rzaquliyev ömründə cəmi iki rəngli şəkil çəkib – "Azərbaycanlı qız" və "Güləşçilər"... Qalanları iki rəngdədir: ağ və qara... Lap öz həyatı kimi...".

Birinci zalda Salam Salamzadə, Rüstəm Mustafayev, Əli Rasim Muxtarov, Reyhan Topçubaşova, Qəzənfər Xalıqov, Sadıq Şərifzadə, Davud Kazımov kimi rəssamların da yaradıcılığı nümayiş etdirilir. Rüstəm Mustafayevin 30 illik ömrə sığan sənət rəngləri. Onun yaratdığı portretlərdə obrazların öz daxili dünyası maraq doğurur. Azərbaycan təsviri sənətində dahi Nizami Gəncəvinin obrazını ilk dəfə yaradan Qəzənfər Xalıqov. Ekspozisiyada rəssamın "Firdovsinin dəfni" və digər əsərləri nümayiş olunur.

Sərgidən bütün əsərləri şərh etmək fikrim olmadığı üçün müəyyən detallar və əsərləri yada salıram. Məsələn, "Firdovsinin dəfni" əsərinə diqqət edək. Əsrlər, qərinələr keçir, amma insanlar dəyişmir ki, dəyişmir. Bu əsər bizə insanlığı, insana qiymət verməyi, Xalq şairi Cabir Novruzun "Tələsin, insanlar" şeirini yada salır. Əsər həyat və ölüm arasındakı məsafənin nə qədər qısa olduğunu sanki qulağımıza pıçıldayır. Bütün bu duyğulara köklənmişkən rəssamın "Qadın şurası" əsəri düşüncələrimizi büsbütün dəyişdirir. Məlum olduğu kimi, sosializm quruluşu qadınların hüquqlarını bərpa etməsi, onları ağ günə çıxarması ilə öyünürdü. Bu əsər də sosialist inqilabının gətirdiyi dəyişiklikləri göstərir.

İndi isə Reyhan Topçubaşovanın "Toy" əsərinin qarşısındayıq. Fırça ustası unudulmaqda olan bir sıra milli-adət ənənələrimizi bu əsərində verməyə çalışıb. Əsərin kolorit zənginliyi tamaşaçıda xoş əhval yaratmaqla bərabər, Azərbaycan qadınlarının milli geyim nümunələri barədə də təsəvvür oyadır.



Əmək mövzusunun önəmli yer tutduğu dövrü əks etdirən əsərlərin nümayiş olunduğu məkana keçirik. Bu hissədə həm də Azərbaycan rəssamlarının yaradıcılıq ezamiyyələri zamanı ərsəyə gələn sənət nümunələri öz füsunkarlığı ilə diqqəti çəkir. Mənzərə janrında olan bu əsərlərin hər biri kətan üzərində bölgənin təbiət gözəlliklərini əks etdirir. Rəssamlar mənzərə janrında olan tablolarda həm də zəhmətkeşlərin əmək şəraitini, onların yaşam tərzlərini göstəriblər. Sadıq Şərifzadənin fırçasından çıxışmış əsərlər bu mənada fikrimizi daha da qüvvətləndirir. Keçirik Salam Salamzadənin əsərlərinə. İlk olaraq zavod fəhlələrinin obrazlarını görürük. Yaradıcılığında tematik tablolar üstünlük təşkil edən istedadlı fırça ustası portret və mənzərə rəsmləri ilə də böyük tamaşaçı marağı qazanıb. Rəssam təsviri sənətdə Azərbaycan modernizminin tanınmış nümayəndələrindən hesab edilir.

### Zəriflərin rənglər dünyası

Ekspozisiyanın ikinci zalı bütünlüklə qadın rəssamlarımıza həsr olunub. Maral Rəhmanzadə, Xalidə Səfərova... M.Rəhmanzadə Neft Daşlarını ilk dəfə kətana köçürən xanım rəssamdır. Onun Qubanın Xınalıq kəndini əks etdirən əsərləri, xüsusilə, diqqəti çəkir. Rəssam yaradıcılığında qrafik əsərlərə də üstünlük verib.

X.Səfərovanın əsərlərinin önündəyik. Sanki bir film izləyirik. Burada da sosializm ideologiyası bariz görünür. Azərbaycan qadınlarının iş prosesi rəsmlərə köçüb. Amma bu proses sanki kino lentidir. Seyrçi sanki rəngli bir filmi izləyirmiş kimi donub qalır bu əsərlər önündə. Ümumilikdə ideoloji əsərlərin hər birində zəhmətkeşlər çox xoşbəxt təqdim olunur. Görkəmli fırça ustası Tahir Salahova qədər biz zəhmətkeşlərin yorğun simasına rəssamlarımızın az sayda əsərində rast gələ bilərik.



### Gənc rəssamlar üçün qiymətli qaynaq

Daha sonrakı mərhələlər isə mövzu və üslub müxtəlifliyi ilə seçilən ayrı-ayrı tanınmış rəssamların – Səttar Bəhlulzadə, Kamil Xanlarov, Toğrul Nərimanbəyov, Nadir Əbdürrəhmanov, Böyükağa Mirzəzadə və Tahir Salahovun yaradıcılığı ilə təmsil olunur. Burada həmçinin ekspozisiya mövzuları ilə səsləşən, müəllifləri görkəmli heykəltaraşlar Mirəli Mirqasımov, Ömər Eldarov, Həyat Abdullayeva, Elmira Hüseynova, Xanlar Əhmədov olan əsərlər yer alır.

Ekspozisiyanı həm də milli qrafika sənətinin formalaşmasına böyük töhfələr vermiş Bəhruz Kəngərli, Əzim Əzimzadə, Elmira Şahtaxtinskaya, Mikayıl Abdullayev, Sənan Qurbanov kimi özünəməxsus dəst-xəttə malik rəssamların müxtəlif janr və texnikalarda yaratdıqları silsilə əsərlər təşkil edir. Maraqlı məqamlardan biri ekspozisiyada Azərbaycan dəzgah boyakarlığının banisi Bəhruz Kəngərlinin rəsm albomunun və yaratdığı natürmort əsərində əksini tapmış mürəkkəbqabının ilk dəfə nümayiş olunmasıdır.

Ekspozisiyada XX əsrin müxtəlif onilliklərində ərsəyə gəlmiş, qrafik əsərlərlə həmahənglik yaradan Yelena Orbeliani, Zivər Məmmədova, Həyat Abdullayeva, Rasim Xələfov, Telman Zeynalov, Oqtay Şıxəliyev, Liya Ağamalova, Həsənağa Ələsgərov, Saleh Məmmədov kimi tanınmış müəlliflər tərəfindən işlənilmiş keramik fiqurlar və dekorativ boşqablar da sərgilənir.

Dövrün ideologiyası, vətən sevgisi, tarixə baxış rəssamlarımızın əsərlərində əsas mövzulardır. 1980-ci illərin sənət xronikasında biz sovet dönəminin səhnədən getməsinin təzahürlərinə də şahidlik edirik.

Sərgi sahəsini gəzərkən bələdçimiz ekspozisiyanın daimi olacağını deyir. Bu da məni çox sevindirir. Çünki böyük bir tarixi epoxanın məhsulu olan əsərlərin davamlı nümayişi bütün ziyarətçilərdə adıçəkilən dövrün təsviri sənət mənzərəsi barədə dolğun təsəvvür yaradacaq. Bu ekspozisiya həm də gənc rəssamlarımız üçün dəyərli qaynaqdır. Onlar bu sərgini izləməklə həm sənət sələflərinin irsi ilə tanış olacaq, həm də müxtəlif üslubların inkişaf tarixini izləmək, paralellik aparmaq imkanı qazanacaqlar.

### Təəssürata gəlincə...

Əslində, sərgini zaman maşını da adlandırmaq olar. Amma burada bir siyasi quruluş, dövran tərənnüm edilmir, sadəcə, əməyin, zəhmətin, hiss və duyğuların tərənnümü var. Bu gün təsviri sənətdə belə mövzularla, demək olar ki, heç rastlaşmırıq.

Sərgidə tamaşaçılar müəlliflərin bədii axtarışları və onların yaradıcı ifadə variantları ilə tanış olacaqlar. Buradakı əsərlərdə sovet dövrünün gənc kənd qadınları, uşaqlı anaların, eləcə də yeniyetmələrin obrazları öz hiss və yaşantılarının səmimiliyi ilə tamaşaçıları valeh edir. Mənzərə janrında əsərlərdə isə şəhərlərin enerjisi və meşələrin sükutu, səmanın heyranedici mavi üfüqü və suyun üzərində günəş işığının parıltısı var. Bütün bunlar rənglərin sehrindən çıxan bir sirli dünyadır.

Biz sərgidə həm də nəyi müşahidə edirik? Rəssamlar öz xarakterlərinə və yaratdıqları obrazlara həssasdırlar. Müəlliflərin yaratdığı dünya özünü bizə parlaq arxayınlıq kimi göstərir. Bu isə ideoloji yönümdə dövrün elan edilmiş təlimatlarına tam uyğundur. Bütün bu sadaladığımla yanaşı, əsərlər seyrçini estetik gözəlliyi ilə də valeh edir. Elə bu heyranlıqla da sizlərə sərgini mütləq ziyarət etməyi məsləhət bilirəm.

**Lalə Azəri**
**Foto: Həbib Hüseynov**

# "Divanü lüğat-it-türk": Türk dünyasının ortaq dəyəri"

## Azərbaycan alimləri Bişkekdə beynəlxalq konfransda məruzə ediblər

24-25 iyun tarixlərində Qırğızıstanın paytaxtı Bişkekdə "Yazılışının 950-ci ildönümündə "Divanü lüğat-it-türk": Türk dünyasının ortaq dəyəri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Konfransa AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli və Türk dilləri şöbəsinin müdiri professor İsmayıl Kazımov da qatılıblar.

Nadir Məmmədli konfransda "Divanü lüğat-it-türk"ün tədqiqi tarixi" mövzusunda məruzə edib. Alim bildirib ki, ötən əsrin 30-cu illərində SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialında işləmiş özbək əsilli alim Xalid Səid Xocayev Mahmud Kaşğarinin bu məşhur əsərini türkologiya tarixində ilk dəfə ərəb dilindən Azərbaycan dilinə tərcümə edib. O, kitabın tərcüməsindən sonra "əksinqilabi pantürkist təşkilatın üzvü" damğası ilə ittiham olunaraq 1937-ci ildə güllələnib. Alimin evində axtarış aparılan zaman "Divan" üzə çıxmadığından itmiş hesab olunub.

N.Məmmədli "Divanü lüğat-it-türk" əsərinin I, II və III cildlərini konfransın idarə heyətinə təqdim edib.

Professor İsmayıl Kazımov isə "Azərbaycan dilinin tarixi qrammatikası və Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri" mövzusunda məruzə edib. Alim bildirib ki, M.Kaşğarinin bu əsəri dünya tarixində yazılmış ilk türk lüğətidir: "Bu, adi sözlük deyil, eyni zamanda yazıldığı dövrün xarakterik cizgilərini müəyyənləşdirən güzgüsüdür, min il öncəki düşüncəni bu günə gətirən, tanıdan mötəbər bir qaynaqdır. Eyni zamanda bu əsərlə türklüyün, türk qrammatikasının təməli qoyulur".

Xatırladaq ki, Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk" əsərinin 950 illiyi UNESCO-nun 2024–2025-ci illər üzrə yubileylər proqramına daxil edilib.

## Xatirə təqvimi — 28 iyun – 2 iyul

### Azərbaycan

**28 iyun 1842** – Maarifçi, təbiətşünas alim, publisist Həsən bəy Zərdabi (Məlikov; 1842 – 28.11.1907) anadan olub. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə Azərbaycanda milli mətbuatın əsasını qoyub. Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman, Bakı gimnaziyasının ilk müsəlman müəllimi olub.

**28 iyun 1914** – Xalq artisti Barat Həbib qızı Şəkinskaya (1914 – 13.1.1999) Şuşada doğulub. 1935-ci ildən Akademik Milli Dram Teatrının aktrisası olub, bir müddət Gəncə teatrında çalışıb. "Görüş", "O olmasın, bu olsun", "Onun bəlalı sevgisi" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**28 iyun 1925** – Xalq artisti Gülağa Allahverdi oğlu Məmmədov (1925 – 7.6.1994) anadan olub. 40 ildən çox Azərbaycan Televiziya və Radiosu Səid Rüstəmov adına xalq çalğı alətləri ansamblının solisti olub. "Dəli Kür", "Sən niyə susursan?" və s. filmlərdə mahnıları ifa edib.

**28 iyun 1935** – Xalq artisti, professor Ağakişi Şəmməd oğlu Kazımov (1935 – 8.10.2021) Ağcabədi rayonunda doğulub. Musiqili Komediya, Opera və Balet, Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. "Yük" filmində (H.Z.Tağıyev) çəkilib.

**28 iyun 1971** – Məşhur opera müğənnisi Eldar Tofiq oğlu Əliyev (1971 – 4.8.2020) Bakıda anadan olub. Bakı Musiqi Akademiyasında və İtaliyada vokal təhsili alıb. 1994-cü ildən 2005-ci ilədək Milanda "La Skala" teatrının solisti olub, Avropanın bir çox teatrlarının səhnəsində çıxış edib.

**29 iyun 1958** – Əməkdar artist Elçin Qəzənfər oğlu Həmidov (1958 – 4.3.2011) Bakıda doğulub. Musiqili Komediya Teatrının aktyoru olub.

**29 iyun 2007** – UNESCO-nun Dünya İrs Komitəsinin Yeni Zelandiyanın Kristcorc şəhərində keçirilən 31-ci sessiyasında Qobustan Tarix-Bədii Qoruğu təşkilatın Dünya irs siyahısına daxil edilib.

**30 iyun 1812** (yeni təqvimlə 12 iyul) – Mütəfəkkir yazıçı, böyük dramaturq Mirzə Fətəli Axundzadə (1812 – 10.3. 1878) Şəkidə anadan olub. Yaradıcılığa şeirlə başlayıb. 1850-1855-ci illərdə yazdığı altı komediya ("Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Lənkəran xanının vəziri", "Xırs-quldurbasan", "Hacı Qara", "Mürafiə vəkilləri") ilə milli dramaturgiyanın, 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" povesti ilə realist Azərbaycan nəsrinin təməlini qoyub.

**1 iyul 1893** – Tanınmış heykəltaraş, Azərbaycanın Əməkdar incəsənət xadimi, SSRİ Xalq rəssamı Pinxos (Pyotr) Vladimiroviç Sabsay (1893–1980) Odessada doğulub. 1926-cı ildən Bakıda yaşayıb. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində dərs deyib. M.F.Axundzadənin, əmək qəhrəmanları və mədəniyyət xadimlərinin heykəl və büstlərinin müəllifidir.

**1 iyul 1925** – Ədəbiyyatşünas alim, professor Pənah İmran oğlu Xəlilov (1925–2019) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. "Azərbaycan sovet ədəbiyyatı tarixi" üçcildliyinin həmmüəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**1 iyul 1937** – Əməkdar mədəniyyət işçisi, aşıq İsfəndiyar Adil oğlu Rüstəmov (1937 – 9.2.2018) Gədəbəy rayonunun Gərgər kəndində doğulub. Gədəbəydə ilk aşıq ansamblını yaradıb, müxtəlif festivallarda respublikamızı təmsil edib.

**1 iyul 1938** – Xalq artisti Tofiq Səməd oğlu Mövləvi (1938 – 24.5.2024) Naxçıvanda anadan olub. Uzun illər Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

**1 iyul 1942** – Əməkdar jurnalist, filologiya elmləri doktoru Nəsir Abbas oğlu Əhmədli (1.7.1942 – 7.6.2022) Tovuz rayonunun Alakol kəndində doğulub. BDU-nun Jurnalistika fakültəsinin professoru olub.

**2 iyul 1892** – Yazıçı, maarif və mədəniyyət xadimi Tağı Abbas oğlu Şahbazi (Simurq; 1892–1937) Bakıda anadan olub. Respublika Xalq maarif komissarının müavini, Azərbaycan Dövlət Universitetinin rektoru işləyib. "Ağanın kənizi", "Aldanmış ümid", "Qayçı" və s. hekayələrin müəllifidir. Repressiya qurbanıdır.

**2 iyul 1953** – Əməkdar artist Tofiq Əşrəf oğlu Qarayev (1953 – 26.10.2013) Ağdamda doğulub. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**2 iyul 1953** – Əməkdar artist, müğənni Məhəbbət Allahverdi oğlu Kazımov (1953 – 27.1.2014) Laçın rayonunun Çorman kəndində doğulub. "Dan ulduzu" ansamblının solisti olub.

### Dünya

**28 iyun 1577** – Niderland (flamand) rəssamı Piter Paul Rubens (Peter Paul Rubens; 1577–1640) anadan olub. Mifoloji və dini mövzuda bir çox əsərlərin müəllifidir. Portret və peyzaj ustası kimi də tanınıb.

**28 iyun 1712** – Fransız yazıçısı və mütəfəkkiri, maarifçi Jan-Jak Russo (Jean-Jacques Rousseau; 1712–1778) anadan olub. "Yeni Eloiza", "Emil" romanları, fəlsəfi əsərlərin müəllifidir.

**28 iyun 1867** – İtalyan yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1934) Luici Pirandello (Luigi Pirandello; 1867–1936) anadan olub. Əsərləri: "Mərhum Mattia Paskal", "Qocalar və cavanlar" (romanlar), "Liola" , "Hər kəs özünə görə", "IV Henrix" (pyeslər).

**28 iyun 2022** – Tanınmış türk kinoaktyoru Cüneyt Arkın (əsl adı Fahrettin Cüreklibatur; 8.9.1937 – 2022) vəfat edib.

**29 iyun 1900** – Fransız yazıçısı, şair Antuan de Sent-Ekzüperi (Antoine Marie Roger Vicomte de Saint-Exupery; 1900–1944) anadan olub. Peşəkar təyyarəçi olub. "Gecə uçuşu", "Balaca şahzadə", "Qəsr" romanlarının müəllifidir.

**30 iyun 1911** – Polyak şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1980) Çeslav Miloş (Czeslaw Milosz; 1911–2004) anadan olub.

**30 iyun 1918** – Amerika aktrisası, "Oskar" mükafatçısı Süzen Heyuord (Susan Hayward, əsl adı Edythe Marrenner; 1918–1975) anadan olub.

**1 iyul 1646** - Alman idealist filosofu, tarixçi, dilçi və riyaziyyatçı Qotfrid Vilhelm Leybnis (Gottfried Wilhelm Leibniz; 1646–1716) anadan olub.

**1 iyul 1804** – Fransız yazıçısı Jorj Sand (George Sand, əsl adı Amandina Avrora Düpen – Amantine-Aurore-Lucile Dupin de Francueil; 1804–1876) anadan olub. Romanları: "Roz və Blanş", "İndiana", "Konsuelo" və s.

**1 iyul 1902** – Amerika rejissoru Vilyam Vayler (William Wyler; 1902–1981) anadan olub. "Roma tətili", "Həyatımın ən yaxşı illəri" və s. filmləri çəkib, üç dəfə "Oskar"a layiq görülüb.

**1 iyul 1909** – Gürcü aktyoru, SSRİ Xalq artisti Serqo Zakariadze (1909–1971) Bakıda doğulub. "Keto və Kote", "Əsgər atası" və s. filmlərdə çəkilib.

**2 iyul 1714** – Alman bəstəkarı Kristof Villibald Qlük (Christoph Willibald Ritter von Gluck; 1714–1787) anadan olub. "Orfey və Evridika", "Paris və Yelena", "İfigeniya Tavridada" və s. operaların müəllifidir.

**2 iyul 1877** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1946) Herman Hesse (Hermann Hesse; 1877–1962) anadan olub. Əsərləri: "Təkər altında", "Çöl canavarı", "Şərq ölkəsinə ziyarət", "Muncuq oyunu" və s.

**2 iyul 1923** – Polyak şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1996) Vislava Şimborska (Wislawa Szymborska; 1923 – 1.2.2012) anadan olub. "Son və əvvəl", "Yüz..." və s. kitabların müəllifidir.

**2 iyul 1961** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey (Ernest Miller Hemingway; 21.7.1899 – 1961) vəfat edib. Əsərləri: "Əlvida, silah", "Əcəl zəngi kimin üçün çalınır?" (romanlar), "Qoca və dəniz" (povest) və s.

**Hazırladı: V.Orxan**

# İstanbulda “Zəngəzur sənətkarlığı” sərgisi



İstanbulda fəaliyyət göstərən “Xarıbülbül” Azərbaycan Vizyon Teatrı və “Tək Hədəfim Təhsil” birlikləri tərəfindən həyata keçirilən “Biz birlikdə güclüyük!” layihəsi çərçivəsində “Validə Sultan” gəmisində “Zəngəzur sənətkarlığı” adlı sərgi nümayiş olunub.

Sərgi Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına “Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım” ictimai birliyinin həyata keçirdiyi layihə əsasında, ölkəmizin İstanbuldakı Baş Konsulluğu və Ankaradakı səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə açılıb.

Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayan tədbirin rəsmi hissəsində çıxış edən “Xarıbülbül” Azərbaycan Vizyon Teatrı” birliyinin rəhbəri Kamalə Kamal Cabbarova, Azərbaycan Baş Konsulluğunun əməkdaşı Zaur Allahverdizadə, “Mərmərə Qrupu” Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver, Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, “Tək Hədəfim Təhsil” birliyinin rəhbəri Cem Yıldırım və digərləri Zəngəzurun tarixi, mədəni irsi, qədim yurd yerimizdə xalqımıza məxsus mirasın ermənilər tərəfindən yox edilməsi haqqında danışıblar.

Zəngəzur sənətkarlığına dair sərgini ərsəyə gətirən Sərdarlar ailəsinin üzvləri – Lalə Sərdarlı (“Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım” ictimai birliyinin sədri), Toğrul Sərdarlı və İsgəndər Sərdarlı çıxış edərək layihə haqqında məlumat veriblər, sərginin qardaş ölkədə təşkilində iştirak edən hər kəsə təşəkkürlərini bildiriblər.

Sonra layihə çərçivəsində hazırlanan sənədli film nümayiş etdirilib.



Bədii hissədə Azərbaycan milli musiqi və rəqs nümunələri ifa edilib, milli mətbəximizin təamları qonaqlara təqdim olunub.

# Sənətçilərimiz Şimali Kiprdə Bellapais musiqi festivalında

Şimali Kiprdə ənənəvi olaraq keçirilən və bu il 26-cısı təşkil edilən Bellapais musiqi festivalına Azərbaycan da qatılıb.



Festival çərçivəsində Bellapais monastırında gerçəkləşən Azərbaycan – Şimali Kipr dostluğuna həsr olunmuş ədəbi-bədii gecədə Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Təhlükəsizlik Qüvvələri Komandanlığının nümunəvi hərbi orkestri və Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin rəhbərliyi ilə ölkəmizdən gedən yaradıcı qrup konsert proqramı ilə çıxış edib.

Bədii proqramı ŞKTC Prezidenti Ersin Tatar, Türkiyənin Lefkoşa böyükelçisi Metin Feyzioğlu, Kıbrıs Türk Barış Qüvvələri komandanı general-leytenant Sebahattin Kılınç, digər rəsmilər, yerli sakinlər izləyiblər.



Abdulla Qurbani türk xalqlarının tarixi, mədəni bağlarından danışıb, Şimali Kiprə həsr etdiyi şeirlərini söyləyib.

Şimali Kipr hərbi orkestrinin (dirijorlar Oktay Keser və Murat Menket) ifasında U.Erkinin “Köçekçe”, A.Hocanın “Kıbrıs” süitası və Ü.Hacıbəylinin “Koroğlu” operasından “Uvertüra” səslənib. Orkestrdə ilk dəfə Azərbaycan tarı və kamançası da yer alıb.

Əməkdar artist Cahangir Qurbanov Müslüm Maqomayevin “Azərbaycan” mahnısı (söz: Nəbi Xəzri), Xalq artisti Vasif Adıgözəlovun “Çanaqqala – 1915” qəhrəmanlıq oratoriyasından parça və “Dolama” türk xalq mahnısını oxuyub. İstedadlı xanəndə Nigar Rəhimovanın ifasında Azərbaycan və Kipr xalq mahnıları da maraqla qarşılanıb.

Hərbi orkestrin ifasında “Böyük Zəfər marşı” (söz: Abdulla Qurbani, musiqi: İlqar Novruzov) və Yılmaz Tanerin “Mücahidlər marşı”nı tamaşaçılar ayaq üstə alqışlayıblar.

ŞKTC rəhbəri Ersin Tatar festival iştirakçılarına yaradıcılıq uğurları arzulayıb, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərini xatırlayıb: “Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, “Kipr bayrağı da Türk dövlətlərinin bayraqları sırasında dalğalanacaqdır!” fikirləri dünyaya bir mesaj olmaqla, Şimali Kipr xalqının da böyük ruh yüksəkliyinə səbəb olub. Biz qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanına daim minnətdarıq və ona inanırıq”.

O daha sonra deyib: “Biz tarixi, mənəvi köklərlə bir-birimizə bağlıyıq. Bu əlaqələrin daha da güclənməsi və gələcək nəsillərin bir-birini daha yaxından tanıması üçün birgə səylərimizi əsirgəməyəcəyik. Bugünkü dostluq və qardaşlıq gecəsi bunun parlaq təcəssümüdür”.

Ersin Tatar azərbaycanlı sənətçilərə xatirə hədiyyələri təqdim edib.

# Yeni Daşkənd belə olacaq

Hazırda Özbəkistanın paytaxtı Daşkənddə 5 milyondan çox insan yaşayır və işləyir. Paytaxtın ilbəil artan tələbatını ödəmək üçün hər il 20 mindən artıq mənzilli fondu olan yaşayış binaları, 40-dan çox məktəb, uşaq bağçası və poliklinika tikmək lazımdır.



Özbəkistan mediasının məlumatına görə, bu vəziyyət Böyük Britaniya, Sinqapur, Çin və Türkiyənin mütəxəssisləri ilə birgə hazırlanan şəhərin 2045-ci ilə qədər Baş planı layihəsində nəzərə alınıb.

Layihə paytaxtın ərazisinin tədricən genişləndirilməsini, Çirçik və Korasu çayları arasında sahəsi 25 min hektar olan yeni şəhərin salınmasını nəzərdə tutur. Burada təxminən 2,5 milyon nəfərin yerləşdirilməsi planlaşdırılır.

Birinci mərhələdə çoxmərtəbəli binaların, təhsil və səhiyyə müəssisələrinin, o cümlədən bir sıra nazirliklər, ali məktəblər üçün binalar, mədəniyyət müəssisələri və sosial obyektlərin tikintisi nəzərdə tutulub. “Cross Works” şirkətinin təqdim etdiyi plana hündürlüyü 575 metr olan əkiz qüllələr kompleksinin tikintisi də daxildir.

Plana görə, paytaxt ekoloji cəhətdən daha təmiz, əhali üçün hər cəhətdən rahat şəhərə çevrilməlidir. Yeni Daşkənddə 420 hektar sahədə Mərkəzi park da salınacaq.

# Assanj asan yolu seçdi

Xəbər verildiyi kimi, 2019-cu ildən Böyük Britaniyada həbsdə olan “Wikileaks” portalının təsisçisi Culian Assanj (Julian Assange) ABŞ hakimiyyəti ilə razılığa gələrək azadlığa çıxıb.



İyunun 24-də Belmarş həbsxanasından çıxan Culian Assanj təyyarə ilə ABŞ-nin Qərbi Sakit okeandakı federal torpağı sayılan Saypan adasında (Marian adaları) aparılıb və ayın 25-də oradakı məhkəmədən sonra sərbəst buraxılıb. Assanj buradan vətəni Avstraliyaya gedib.

C.Assanj məhkəmə prosesi zamanı ABŞ-nin hərbi sirlərini ictimailəşdirmə maddəsi üzrə təqsirli olduğunu etiraf edib, həmçinin “Wikileaks” portalındakı məlumatları silmək öhdəliyini üzərinə götürüb. Razılaşma üzrə o, ABŞ yurisdiksiyasındakı məhkəmədə hakim qarşısına çıxmalı idi və Amerikaya getmək istəmədiyi üçün məhkəmə Saypan adasında (həm də Avstraliyaya yaxın) təşkil edilib.

Razılaşma şərtinə görə, ABŞ Ədliyyə Departamentinin prokurorları məhkəmədə Assanja 62 aylıq həbs tələb edib, bu da onun Britaniyada həbsxanada olduğu müddətə bərabərdir və o artıq cəzasını çəkmiş sayılıb. Qeyd edək ki, “Wikileaks”in təsisçisi təkadamlıq kamerada 1901 gün keçirib.

Xatırladaq ki, Assanj 2009-cu ilin sonundan (Barak Obamanın prezidentliyi dövründə) başlayaraq qurduğu “WikiLeaks” saytında Əfqanıstandakı müharibə ilə bağlı fəaliyyətlərə dair on minlərlə hesabatı, İraqdakı müharibə ilə bağlı yüz minlərlə hesabatı, ABŞ Dövlət Departamentinin yüz minlərlə teleqramını və Quantanamo həbsxanasında məhbuslarla bağlı xülasə hesabatı ictimailəşdirdiyi üçün barəsində cinayət işi açılmışdı. Ona qarşı ümumilikdə 175 il həbs cəzası olan ittihamlar irəli sürülmüşdü.

Assanj 2012–2019-cu illərdə Ekvadorun Londondakı Səfirliyində gizlənmiş, Ekvador onun siyasi sığınacaq hüququnu ləğv edəndən sonra isə o, həbs edilərək Britaniyada həbsxanaya salınmışdı. İngilis məhkəməsi 2022-ci ilin aprelində onun ABŞ-yə ekstradisiyasına icazə vermişdi, lakin müdafiə tərəfi apellyasiya üzündən bu gerçəkləşməmişdi.

“WikiLeaks” qurucusunun azadlığa çıxması ABŞ-də birmənalı qarşılanmayıb.

Assanj müharibə zamanı əsgərlərimizin həyatını təhlükəyə atmışdı və qanun çərçivəsində mühakimə edilməli idi. Bayden administrasiyasının onunla sövdələşməsi ədalətin pozulmasıdır.

Bunu ABŞ-nin keçmiş (Donald Tramp dövründə) vitse-prezidenti Mayk Pens deyib. O bildirib ki, ABŞ ordusunun və ya dövlətin milli təhlükəsizliyinə təhdid yaradan heç kəs üçün həbsxanadan yayınmağa şərait yaradacaq bir müqavilə olmamalıdır.

# “Turkish Airlines” Avropanın ən yaxşı aviaşirkətləri sırasında

Dünya üzrə aviadaşıyıcılar və aeroportlar tərəfindən təqdim edilən xidmətlərin keyfiyyəti ilə bağlı davamlı tədqiqatlar aparan “SkyTrax” statistika şirkəti (Böyük Britaniya) növbəti reytinq siyahısını təqdim edib.




Türkiyənin milli aviadaşıyıcısı “Turkish Airlines” doqquzuncu dəfə “Avropanın ən yaxşı aviaşirkəti” adına layiq görülüb. Bu barədə aviaşirkət məlumat yayıb.

“Skytrax” mükafatlarının qaliblərinin elan edilməsi mərasimi Londonda keçirilib.

Məlumata əsasən, Türkiyə aviaşirkəti “Dünyada ən yaxşı biznes-sinif yemək xidmətləri” və “Cənubi Avropanın ən yaxşı aviaşirkəti” nominasiyalarında da mükafata layiq görülüb.

“Turkish Airlines”ın baş direktoru Bilal Ekşi “Skytrax”ın qərarını Türkiyənin aparıcı aviadaşıyıcısının bütün personalının gərgin komanda işinin nəticəsi adlandırıb.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (28 iyun – 2 iyul)



### 399 il əvvəl...

**30 iyun 1625-ci ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1623–1639) gedişində Şah Abbasın qoşunları gürcü çarlıqlarının birləşmiş qüvvələrinə qalib gəlib, bölgəni yenidən nəzarətə götürüb. Gürcüstan uğrunda mübarizə aparan Osmanlı qoşunları bölgəni tərk edib. 1639-cu ildə imzalanan Qəsri-Şirin sülh müqaviləsinə görə, Osmanlı dövləti Cənubi Qafqazın Səfəvilərin hökmranlığı altında olmasını qəbul etdi.

### 157 il əvvəl...

**1 iyul 1867-ci ildə** Kanada dövlətinin yarandığı elan edilib. O vaxtadək Kanada ingilislərin tam müstəmləkəsi idi. Britaniya Parlamentinin qəbul etdiyi qanuna əsasən, Kanada dominion (Britaniya Kralının general-qubernator təyin etdiyi, amma faktiki müstəqil) dövlət statusu aldı. Kanadanın 4 vilayəti vardı və ərazisi indikinin üçdəbiri qədər idi.

### 110 il əvvəl...



**28 iyun 1914-cü ildə** Sarayevoda (Bosniyanın paytaxtı) Avstriya taxt-tacının vəliəhdi Frans Ferdinand serb millətçiləri tərəfindən qətlə yetirilib. Terror aktı “Mlado Bosna” qrupu tərəfindən həyata keçirilmişdi. Bu qətl I Dünya müharibəsinin başlanmasına bəhanə kimi tarixə düşüb. 1914-cü il avqustun 1-də Avstriya-Macarıstan Serbiya üzərinə hücum etdi, Rusiya Serbiyanın müdafiəsinə qalxdı, bunun ardınca Almaniya Avstriya-Macarıstanın tərəfində müharibəyə qoşuldu.

### 106 il əvvəl...

**2 iyul 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölümünün yaradılması barədə əmr imzalayıb. Bununla Azərbaycan polis orqanlarının əsası qoyulub. Prezident Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə iyulun 2-si Azərbaycanda “Polis günü” kimi qeyd olunur.

### 105 il əvvəl...

**28 iyun 1919-cu ildə** I Dünya müharibəsinə (1914–1918) rəsmən son qoyan Versal (Fransa) sülhü imzalanıb. Bu, əslində, Almaniyanın kapitulyasiyasına dair saziş idi. Almaniya Elzas-Lotaringiyanı Fransaya (almanlar onu 1870-ci ildə ələ keçirmişdi), Eypen bölgəsini Belçikaya, Poznanı və Qərbi Prussiyanın bir hissəsini Polşaya qaytarıb, Dansiq (Qdansk) və Memel (Klaypeda) şəhərlərinə müstəqil idarəçilik verməli olub (sonradan biri Polşaya, digəri Litvaya birləşdirildi). Şlezviq və Sileziyanın bir hissəsi Danimarka və Çexoslovakiyaya keçib. Bütövlükdə Almaniya 1914-cü ilədək olan ərazisinin 13 faizini itirib.

### 90 il əvvəl...

**30 iyun 1934-cü ildə** Azərbaycan Bəstəkarlar İttifaqı yaranıb. Əslən Krım tatarı olan, Azərbaycan Dövlət Konservatoriyasında dərs deyən Asan Refatov ittifaqın idarə heyətinin sədri seçilib. O, Bəstəkarlar İttifaqına bir il rəhbərlik etdi, 1937-ci ildə repressiya olundu.

### 48 il əvvəl...

**2 iyul 1976-cı ildə** Vyetnamın cənubunda ABŞ işğalçılığının başa çatması ilə ölkə birləşib. Şimaldakı Hanoy şəhəri paytaxt olmaqla Vyetnam Sosialist Respublikasının yarandığı elan edilib. Cənubda amerikapərəst rejimin mərkəzi olmuş Sayqon şəhəri Xoşimin (Vyetnam kommunistlərinin lideri) adlandırılıb.

### 17 il əvvəl...



**29 iyun 2007-ci ildə** UNESCO-nun Dünya İrs Komitəsinin Yeni Zelandiyanın Kristcorc şəhərində keçirilən 31-ci sessiyasında Qobustan Tarix-Bədii Qoruğu təşkilatın Dünya İrs Siyahısına daxil edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1452
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641